# Amnistiya Aktı indiyədək 3676 məhkuma tətbiq edilib



**"Zəfər günü münasibətilə Amnistiya Aktı qəbul edildikdən sonra aidiyyəti qurumlara tapşırıqlar verildi. Aktın qəbul olunmasından keçən bir ay ərzində bu akt 3676 məhkuma tətbiq edilib".**

Bunu Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi III dərəcəli dövlət ədliyyə müşaviri Elnur Musayev dünən 2021-ci il "8 noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" Qərarın prokurorluq orqanları tərəfindən icrasına dair keçirilən brifinqdə deyib.

*O bildirib ki, aktın icra edildiyi cəzaçəkmə müəssisələrinin sayı 1506-dır. Bununla yanaşı, məntəqə tipli cəzaçəkmə müəssisələrində, məhkəmələrdə də aktın tətbiq edilməsi təmin olunub.*



## Sabirabadda 58 yaşlı kişi atdan yıxılaraq ölüb

**Sabirabad sakini atdan yıxılıb.**

APA-nın Mil-Muğan bürosunun məlumatına görə, Sabirabad rayonunun Ətcələr kənd sakini, 1963-cü il təvəllüdlü Ağayev Famil Məhəmməd oğlu atdan yıxılaraq ağır kəllə-beyin travması alıb. Şirvan şəhər Mərkəzi Xəstəxanasına aparılan 58 yaşlı kişi yolda ölüb.


№ 223 (5505), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az

7 dekabr 2021-ci il (çərşənbə axşamı)


# Qarabağa qayıdacaq əhali ilə bağlı qanun layihəsi hazırlanıb



**İşğaldan azad edilən ərazilərə qayıdacaq əhalinin repatriasiyası və reinteqrasiyası ilə bağlı qanun layihəsinin ilkin variantı hazırdır.**

Trend-in məlumatına görə, bunu Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini Fuad Hüseynov Şamaxıda keçirilən "İşğaldan azad edilmiş ərazilərin innovativ iqtisadi inkişaf imkanları" mövzusunda elmi-praktiki konfransda deyib.

O bildirib ki, Qarabağda yaşayacaq əhalinin işlə təminatı üçün xüsusi məşğulluq kvotası və işə götürmənin prinsipləri üzrə razılıq əldə ediləcək:

"Əhalinin ilkin məşğulluğu dövlət xətti ilə təmin olunacaq. Qayıdacaq əhalinin repatriasiyası və reinteqrasiyası ilə bağlı qanun layihəsinin ilkin variantı hazırdır. Artıq layihə Nazirlər Kabineti, Prezident Administrasiyası və rəy verilməsi üçün müvafiq qurumlara təqdim edilib",- deyə o qeyd edib.



## "Ermənistan bizim şərtlərimizi qəbul etməlidir"

İlham Əliyev: "Bizə tarix versinlər, Zəngəzur dəhlizi nə vaxt açılacaq və belə olan halda, heç bir problem olmayacaq"

**Prezident İlham Əliyev Qubanın Qonaqkənd qəsəbəsində sakinlərlə görüşü zamanı müharibədə qazandığımız zəfərdən danışıb:**

"Bu, bizim hamımızın Qələbəsidir. Hər bir Azərbaycan vətəndaşı öz əməyi ilə, öz işi ilə o müqəddəs günü yaxınlaşdırırdı. Biz bütün işğal dövründə Qarabağı ürəyimizdə saxlamışdıq və Qarabağı görməyən gənc nəsil yetişdi. Onlar Qarabağı canı-qanı bahasına azad etdilər. Tarixi ədaləti bərpa etdik, xalqımızın ləyaqətini bərpa etdik. İndi isə artıq yeni dövr başlayır".

## Ceyhun Bayramov ABŞ Dövlət Katibinin köməkçisi ilə telefonla danışıb

ABŞ Azərbaycanın 10 nəfər erməni əsilli hərbçini təhvil verməsini müsbət hal kimi dəyərləndirib



**Dekabrın 6-da xarici işlər naziri Ceyhun Bayramovun ABŞ Dövlət Katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfrid ilə telefon danışığı baş tutub.**

XİN-dən "Şərq"ə verilən məlumata görə, tərəflər bölgədə mövcud olan ən son vəziyyət, o cümlədən Ermənistan və Azərbaycan arasında münaqişə sonrası münasibətlərin normallaşdırılması üzrə danışıqların mövcud durumu ətrafında fikir mübadiləsi aparıblar.

Karen Donfrid Azərbaycanın 10 nəfər erməni əsilli hərbi qulluqçunu Ermənistan tərəfinə təhvil verməsini, habelə Ermənistanın mina xəritələrini Azərbaycana təqdim etməsini müsbət bir hal və münasibətlərin normallaşması istiqamətində irəliləyiş kimi dəyərləndirib.

# İrəvan mina xəritələrini təzyiq altında təhvil verib



Çünki üçtərəfli bəyanatın icrasında problemlər olsa, burada Rusiyanın məsuliyyəti yaranacaq

**Azərbaycan humanizm prinsiplərini əsas tutaraq dekabrın 4-də daha 10 nəfər erməni hərbi qulluqçunu Ermənistan tərəfinə təhvil verib. Eyni zamanda aparılmış danışıqlar nəticəsində İrəvan hökuməti işğaldan azad olunan digər ərazilərin mina xəritələrini Azərbaycana təqdim edib.**

Ermənistana təhvil verilənlər 16 noyabrda Kəlbəcər istiqamətində törədilən təxribatın qarşısı alınarkən saxlanılan şəxslər olublar. Mübadilə Rusiya Müdafiə Nazirliyinin vasitəçiliyi ilə baş tutub. Alınan xəritələr əvvəlki 3 rayondan - Ağdam, Füzuli və Zəngilandan başqa bütün əraziləri əhatə edir. Şübhə yox ki, budəfəki xəritələrin də doğruluq payı müəmmalıdır. Əvvəlki xəritələrin sadəcə 25 faizi basdırılan minaların yeri ilə uyğunluq təşkil edirdi.

(səh.3)



## Azərbaycan müdafiə nazirinin müavini Rusiyaya gedib

**Azərbaycan müdafiə nazirinin müavini - Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanov dekabrın 6-da Rusiya paytaxtı Moskva şəhərinə yola düşüb.**

Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, o, hərbi-texniki əməkdaşlıq üzrə Azərbaycan-Rusiya Hökumətlərarası Komissiyasının 14-cü iclasında iştirak edəcək.

Səfər dekabrın 9-dək davam edəcək.

# Xoş xəbər, koronavirus məğlub olur

"Omicron" ştamı COVID-19 üzərində qələbənin yaxınlıqda olduğunu göstərir

**Koronavirusun bu mutasiyası soyuqdəymə xəstəliyini yaradan digər respirator virusunun genetik materiallarının bir hissəsini özünə götürüb.**

ABŞ-ın Kembric Universitetindən olan (Massaçusets ştatı) virusoloqlar koronavirusun hazırda dünyanı lərzəyə salan "omicron" ştamında insan geni aşkar ediblər. "Sputnik Azərbaycan" "Ednews"a istinadla xəbər verir ki, araşdırmanın nəticələri "OSF Preprints" saytında dərc olunub, araşdırma qrupuna Venki Saundararacan rəhbərlik edib, məlumatların analizi ilə məşğul olan "Nference" şirkəti araşdırmaya dəstək verib. Virusoloqlar müəyyən ediblər ki, "omicron" ştamı koronavirusun genetik kodunda və eyni zamanda insan genində yer alan və soyuqdəymə xəstəliyini yaradan mutasiyalardan birini əldə edib.

(səh.2)






## Əziz Sancar arzusuna qovuşdu, Şuşada namaz qıldı

"Qarabağ zəfəri Türkiyənin Qurtuluş savaşından sonra türk dünyasının ən böyük və ən önəmli zəfəridir"

Xəbər verdiyimiz kimi dünya şöhrətli alim, ABŞ-ın Şimali Karolina Universitetinin professoru, Kimya üzrə Nobel mükafatı laureatı, DNT sahəsində mühüm kəşfləri ilə tanınan, dünya şöhrətli alim Əziz Sancar Azərbaycanda səfərdədir.

(səh.4)

## Son sutkada 585 nəfər koronavirusa yoluxub

16 nəfər vəfat edib, 944 nəfər müalicə olunaraq sağalıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 585 yeni yoluxma faktı qeydə alınıb, 944 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 16 nəfər vəfat edib.

*İndiyədək ölkədə ümumilikdə 596 973 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 565 521 nəfər müalicə olunaraq sağalıb, 7983 nəfər vəfat edib, aktiv xəstə sayı 23 469 nəfərdir.*



## Qəzaya uğrayan helikopterin "qara qutu"su üzərində iş aparılır

Baş Prokurorluq: "Hadisənin baş verməsində hər hansı bir təxribat, kənar müdaxilə yoxdur"

(səh.2)



## Brüsseldə keçiriləcək görüşə artıq ehtiyac qalmayıb

"Ermənistan hakimiyyəti Zəngəzur dəhlizinin açılmasına razılaşacaq"

(səh.3)

# "Ermənistan bizim şərtlərimizi qəbul etməlidir"

İlham Əliyev: "Bizə tarix versinlər, Zəngəzur dəhlizi nə vaxt açılacaq və belə olan halda, heç bir problem olmayacaq"



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva dekabrın 6-da Quba rayonuna səfərə gəliblər.**

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ulu öndər Heydər Əliyevin Quba şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub, Quba Olimpiya İdman Kompleksində yenidənqurma, əsaslı təmir və tikinti işlərindən sonra yaradılan şəraitlə tanış olub, "Quba ABAD Factory" qablaşdırma vasitələrinin istehsalı müəssisəsinin açılışında iştirak ediblər.

Prezident İlham Əliyev Quba-Qonaqkənd avtomobil yolunun açılışını da edib.

46 kilometrlik Quba-Qonaqkənd avtomobil yolunun istismara verilməsi ilə 68 min nəfərin rahat gediş-gəlişi təmin olunur.

Bu yol uzun illər əsaslı təmir olunmadığı üçün hərəkət hissəsində qabarmalar, çalalar əmələ gəlmişdi. Bu isə yolda nəqliyyatın hərəkətini çətinləşdirirdi.

Qeyd edək ki, ərazinin özünəməxsus relyefi tikinti işlərinin gedişinə də birbaşa təsir göstərib. Bəzi yerlərdə dağ yamaclarının qaya süxurları kəsilib, qrunt sularının axıdılması təmin edilib. Bir sözlə, dövlətimizin başçısının sərəncamı ilə vətəndaşların rahatlığının təmin olunması üçün çox əhəmiyyətli işlər görülüb.

Onu da deyək ki, Quba-Qonaqkənd yolunun yenidən qurulması həm də əhalinin tədarük etdiyi kənd təsərrüfatı məhsullarını, meyvə-tərəvəzi qısa vaxtda istədikləri ünvana çatdırmağa imkan yaradır, həmçinin turizm imkanlarını daha da genişləndirir.

Dövlətimizin başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Heydər Əliyev Fondu tərəfindən Qubanın Birinci Nügədi kəndində inşa olunmuş 1 nömrəli tam orta məktəbdə, Qonaqkənd qəsəbəsində yeni inşa olunan Mədəniyyət Evində yaradılan şəraitlə tanış olub və Qonaqkənd qəsəbəsinin sakinləri ilə görüşüb, qəsəbə sakinləri ilə birgə ulu öndər Heydər Əliyevin Qonaqkənd qəsəbəsində ucaldılan abidəsinin önünə gül dəstəsi qoyublar.

Prezident İlham Əliyev Qubanın Qonaqkənd qəsəbəsində sakinlərlə görüşü zamanı müharibədə qazandığımız zəfərdən danışıb:

"Bu, bizim hamımızın Qələbəsidir. Hər bir Azərbaycan vətəndaşı öz əməyi ilə, öz işi ilə o müqəddəs günü yaxınlaşdırırdı. Biz bütün işğal dövründə Qarabağı ürəyimizdə saxlamışdıq və Qarabağı görməyən gənc nəsil yetişdi. Onlar Qarabağı canı-qanı bahasına azad etdilər. Tarixi ədaləti bərpa etdik, xalqımızın ləyaqətini bərpa etdik. İndi isə artıq yeni dövr başlayır".

**Dövlət başçısı bildirib ki, quruculuq işləri həm Qarabağda, həm də Zəngəzurda aparılır:** "Eyni zamanda bizim son vaxtlar apardığımız işlər onu göstərir ki, hər hansı bir revanşist meyil olarsa, onun məsələsi dərhal yerindəcə həll olunacaq. Çünki müharibədən sonra Ermənistan tərəfindən bir neçə dəfə belə cəhdlər oldu və onun acı nəticələrini onlar özləri gördülər. Ona görə hələ ki gec deyil, mən onlara artıq dəfələrlə müraciət edərək demişdim, bizim şərtlərimizi qəbul etməlidirlər, yollarla, kommunikasiyalarla bağlı hər hansı bir qeyri-səmimi yanaşmaya son qoyulmalıdır. Əgər belə olarsa, onda Cənubi Qafqazda bütün xalqlar sülh, əmin-amanlıq şəraitində yaşayacaq. Çünki biz istədiyimizə nail ola bilmişik, bunu hər kəs gördü".

**Prezident İlham Əliyev deyib ki, Ermənistan da gördü, dünya da gördü, heç kim bizi saxlaya bilmədi. Müharibə dövründə bizi saxlamaq istəyənlər olub, kifayət qədər güclü dairələr olub, amma bizi dayandıra bilmədilər;**

"Mən demişdim ki, bizə tarix versinlər torpaqlarımızdan nə vaxt çıxır, o an biz dayanmağa hazırıq. Bu gün də eyni sözü deyirəm. Amma deyirəm ki, bizə tarix versinlər, Zəngəzur dəhlizi nə vaxt açılacaq və belə olan halda, heç bir problem olmayacaq. Ona görə hesab edirəm ki, həm Ermənistan rəhbərliyi, həm Ermənistan ictimaiyyəti, əhalisi bunu başa düşməlidir. Biz istədiyimizə nail olmuşuq, oluruq və olacağıq. Yaxşı olar ki, bu məsələ konstruktiv şəkildə danışıqlar yolu ilə, qarşılıqlı anlaşma yolu ilə həll olunsun. Çünki İkinci Qarabağ müharibəsi bütün dünyaya xalqımızın iradəsini, gücünü və birliyini göstərdi. Yol boyunca gələndə gördüm, şəhidlərin şəkilləri vurulub. Hər bir yerdə belədir, - mən son vaxtlar Qarabağ bölgəsinə tez-tez gedirəm, - kəndlərdə şəhidlərin şəkilləri vurulub. Yəni, bu Zəfəri bütün Azərbaycan xalqı əldə edib. Hər bir vətəndaş, hər bir rayon sakini, hər bir nümayəndə. Ona görə bu, tarixi hadisədir və cəmi bir il keçib üstündən, görün nə qədər böyük işlər görmüşük. Mən Qarabağ, Zəngəzur bölgəsinə bəlkə də 10 dəfədən çox getmişəm. Amma, eyni zamanda, Azərbaycanın qalan yerlərini də yaddan çıxarmıram", - dövlət başçısı bildirib.

## 2023-cü ildə dünyanın turizm paytaxtı Səmərqənd şəhəri seçildi

**İspaniyanın Madrid şəhərində BMT-nin Ümumdünya Turizm Təşkilatı Baş Assambleyasının 24-cü sessiyasında qədim Səmərqənd şəhəri 2023-cü ildə dünyanın turizm paytaxtı elan edilib.**

Aviatravel.az bildirir ki, bu haqda Özbəkistan Baş nazirinin müavini, turizm və idman naziri Aziz Abduhakimov məlumat verib. O deyib ki, BMT-nin Ümumdünya Turizm Təşkilatı Baş Assambleyasının 25-ci sessiyası 2023-cü ildə Səmərqənddə keçiriləcək. Sessiyaya 1000-dən çox qonağın gələcəyi gözlənilir.

A.Abduhakimov bildirib ki, artıq tədbirin hazırlıq işlərinə başlanıb. Yeni mehmanxanaların, restoranların tikintisi planlaşdırılır. Tikilməkdə olan "Samarkand Touristic Centre" 212 hektar sahəni əhatə edəcək. "New Renaissance" adlı konqress-hollda mehmanxanalar, restoranlar və digər xidmət obyektləri olacaq.

Baş nazirin müavini deyib ki, növbəti sessiyanın Səmərqənddə keçirilməsi ölkənin turizm sahəsinin inkişafına güclü təkan verəcək.

## Azərbaycanın müdafiə naziri Pakistana başsağlığı verib



**Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov Pakistanın federal müdafiə naziri cənab Pervez Xattaka, Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Nadim Razaya və Quru Qoşunları komandanı general Qamar Caved Bacvaya başsağlığı ünvanlayıb.**

"Şərq" xəbər verir ki, mətndə deyilir: "Hərbi helikopterin qəzaya uğraması nəticəsində qardaş Pakistan Silahlı Qüvvələrinin hərbi qulluqçularının həlak olması xəbəri məni dərindən kədərləndirdi.

Həlak olan hərbi qulluqçulara Allahdan rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin".

# Qəzaya uğrayan helikopterin "qara qutu"su üzərində iş aparılır

Baş Prokurorluq: "Hadisənin baş verməsində hər hansı bir təxribat, kənar müdaxilə yoxdur"



**Dövlət Sərhəd Xidmətinə (DSX) məxsus hərbi helikopterin qəzaya uğramasında hər hansı bir təxribat və ya kənar müdaxilə yoxdur.**

Bunu Baş prokurorun böyük köməkçisi, Ədliyyə müşaviri Mahir Abbasov dünən 2021-ci il noyabrın 5-də verilən "8 noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" Qərarın prokurorluq orqanları tərəfindən icrasına dair keçirilən brifinqdə deyib.

O bildirib ki, hadisə baş verəndən sonra dərhal Baş Prokurorluğun istintaq qrupu yaradılıb və hadisə yerinə gedilib: "Mürəkkəb bir hadisə olduğuna görə müxtəlif növ ekpertizalar təyin edilib. Hadisənin baş verməsində hər hansı bir təxribat, kənar müdaxilə yoxdur. Ekspertizaların rəylərindən sonra hadisənin baş verməsi barəbə dəqiq məlumat veriləcək", - deyə o bildirib.

M.Abbasov əlavə edib ki, helikopterin "qara qutu"su üzərində iş aparılır. "Bununla bağlı hazırda hər hansı bir məlumat verə bilmərik", - deyə o qeyd edib.



# Mina xəritələrinin dəqiqliyi yenə sual altındadır

Ədalət Verdiyev: "Əgər sənəd yenə saxta çıxsa, mina təmizlənməsinə xərclənən vəsaiti də Ermənistandan geri tələb etməliyik"

**Xəbər verdiyimiz kimi, dekabrın 4-də Azərbaycan humanizm prinsiplərini əsas tutaraq 10 nəfər erməni əsilli hərbi qulluqçunu Ermənistan tərəfinə təhvil verdi. Nəticədə işğaldan azad olunan digər ərazilərin mina xəritələrini əldə edə bildi.**

Dövlət Təhlükəsizliyi Xidmətindən verilən məlumata görə, Ermənistana təhvil verilən şəxslər 16 noyabr 2021-ci il tarixində işğalçı ölkənin silahlı qüvvələri tərəfindən dövlət sərhədinin Kəlbəcər istiqamətində törədilən təxribatın qarşısı alınarkən saxlanılıblar. Azərbaycan Respublikası bir müddət öncə 26 noyabr 2021-ci il tarixində erməni əsilli bir mülki şəxsi və bir hərbi qulluqçunun Ermənistan tərəfinə təhvil verilməsini təmin edib.

Demək olar ki, işğaldan azad edilən bütün minalı ərazilərin xəritələri artıq əlimizdədir, lakin onların dəqiqliyinin əvvəlkindən yaxşı olduğunu düşünə bilmərik. Dəqiqlik barədə son sözü yəqin ki, yaxın günlərdə Silahlı Qüvvələrin mühəndis xidmətləri və ANAMA deyəcək.

**Mina xəritələrinin qaytarılmasını "Şərq"ə dəyərləndirən hərbi ekspert Ədalət Verdiyev qeyd edib ki, Vətən müharibəsinin başa çatmasından 13 ay keçməsinə baxmayaraq hələ də Azərbaycan vətəndaşları Ermənistanın ərazilərimizdə basdırdığı minalarda sağlamlığını və ya həyatını itirməkdə davam edir:** "Bir neçə dəfə İrəvan Azərbaycana mina xəritələrini təqdim etsə də, bu günə qədər onların böyük əksəriyyəti Ermənistan Müdafiə Nazirliyinin Mühəndis qoşunlarının arxivində saxlanılırdı. Əvvəl təqdim edilən 3 rayonun xəritələrinin cəmi 25 faiz dəqiq olması isə daha geniş araşdırma tələb edən mövzulardan biridir. Ermənistan hökuməti dəqiq xəritələrə malik olduğunu etiraf etsə də, bu xəritələri Azərbaycana verməməklə bu məsələni siyasi şantaj predmetinə çevirirdi. Bu isə Ermənistanda terrorizmin dövlət səviyyəsində dəstəkləndiyi deməkdir. İstənilən halda minalarda həlak olan və ya sağlamlığını itirən vətəndaşlara görə Ermənistan cavabdehlik daşıyır. Bu məsələ dəfələrlə müxtəlif platformalarda müzakirə edilsə də, rəsmi İrəvan minalı ərazilərin dəqiq xəritələrini bu günə qədər Azərbaycana verməkdən imtina etməklə rəsmi Bakının səbr kasasını daşırmağa çalışırdı.

ANAMA-nın təqdim etdiyi statistik təhlil göstərir ki, mina hadisələrinin 51 faizi azad edilmiş ərazilərə qanunsuz daxil olma zamanı, 26 faizi təmizlənmiş ərazidən kənara çıxma hallarında baş verib. Ərazilər azad edildikdən sonra mülki şəxslər arasında 73 nəfər mina hadisələrinin qurbanı olub, onlardan 49 nəfəri yaralanıb, 24 nəfəri isə həlak olub".

*Ekspert diqqətə çatdırıb ki, Ermənistanın işğal dövründə Azərbaycan ərazilərini "mina tarlasına" çevirməsi, son 13 ayda isə bu xəritələri siyasi şantaj predmeti kimi istifadə etməsi terrorizmin təzahürü kimi dəyərləndirilməlidir:* "Ermənistan tərəfindən Azərbaycana qarşı davam edən mina terroru, əslində erməni terrorizminin yeni formasıdır. Ermənistanın hazırda Azərbaycana qarşı həyata keçirdiyi mina terroru yeni bir hadisə deyil. Bütün dünyaya məlumdur ki, Ermənistan ilk dəfə ərazi iddiaları irəli sürdüyü dövrdə də Azərbaycana və Türkiyəyə qarşı yüzlərlə terror aktı törədib. Odur ki, beynəlxalq təşkilatlar, ayrı-ayrı ölkələrin parlamentləri, insan haqlarının müdafiəsi ilə məşğul olan qurumlar Azərbaycan və onun vətəndaşlarına qarşı qəddarcasına davam etdirilən mina terroruna biganə qalmamalıdırlar".

*Ə.Verdiyev diqqətə çatdırıb ki, dekabrın 4-də Azərbaycan humanizm prinsiplərini əsas tutaraq 10 nəfər erməni əsilli hərbi qulluqçunu Ermənistan tərəfinə təhvil verməklə işğaldan azad olunan digər ərazilərin mina xəritələrini Ermənistandan əldə edə bildi:* "Bu, Ermənistanı "mina terrorunun memarı" titulundan xilas edə bilməz.

İstənilən halda Ermənistanın işğal dövründə Azərbaycan ərazilərinə basdırdığı minalar vətəndaşlarımızın doğma yurd-yuvalarına qayıtmasına mane olmaq məqsədilə həyata keçirilib. Ermənistan xəritəni təqdim etsə də, böyük məbləğdə vəsait tələb edən minatəmizləməni Azərbaycan öz vəsaiti hesabına həyata keçirir. Minaların qurbanları isə daha çox dinc sakinlərdir. Əgər bu xəritələr də qeyri-dəqiq olarsa, deməli, döyüş meydanında məğlub olan Ermənistan dinc sakinlərə qarşı müharibəni hələ də davam etdirir.

Belə olan halda mövcud faktlar əsasında Ermənistanın məsuliyyət daşıması üçün hüquqi prosedurlara başlamalıyıq, həlak olanların ailələrinə və yaralananlara ödəniləcək kompensasiya ilə bərabər minaların təmizlənməsinə xərclənən vəsaiti də Ermənistandan geri tələb etməliyik".

**Günəş Mərd**

# Xoş xəbər, koronavirus məğlub olur

"Omicron" ştamı COVID-19 üzərində qələbənin yaxınlıqda olduğunu göstərir

**Koronavirusun bu mutasiyası soyuqdəymə xəstəliyini yaradan digər respirator virusunun genetik materiallarının bir hissəsini özünə götürüb.**



ABŞ-ın Kembric Universitetindən olan (Massaçusets ştatı) virusoloqlar koronavirusun hazırda dünyanı lərzəyə salan "omicron" ştamında insan geni aşkar ediblər. "Sputnik Azərbaycan" "Ednews"a istinadla xəbər verir ki, araşdırmanın nəticələri "OSF Preprints" saytında dərc olunub, araşdırma qrupuna Venki Saundararacan rəhbərlik edib, məlumatların analizi ilə məşğul olan "Nference" şirkəti araşdırmaya dəstək verib. Virusoloqlar müəyyən ediblər ki, "omicron" ştamı koronavirusun genetik kodunda ve eyni zamanda insan genində yer alan və soyuqdəymə xəstəliyini yaradan mutasiyalardan birini əldə edib. Başqa sözlə, koronavirusun bu mutasiyası soyuqdəymə xəstəliyini yaradan digər respirator virusun genetik materiallarının bir hissəsini özünə götürüb. Alimlər müəyyən ediblər ki, bu cür genetik ardıcıllıq koronavirusun indiyədək rast gəlinən heç bir digər mutasiyasında aşkarlanmamışdı. Bu səbəbdən "omicron" həmin gen fraqmentini əldə edərək "daha insani xarakter alıb" və bu da yeni ştama insanın immun sisteminin hücumunu dəf etməyə imkan verir. Amma alimlər hesab edirlər ki, insan geninin və soyuqdəymə virusunun geninin kodlarını özündə əks etdirən yeni ştam xəstəliyin ağır keçməsinə səbəb olmayacaq. Başqa sözlə, "omicron" ştamına yoluxanlarda xəstəlik yüngül və simptomsuz keçə bilər. Lakin alimlər yeni ştamın əvvəlkilərə nisbətən nə qədər çox sürətlə yayılacağı haqda suala cavab tapa bilməyiblər. Bu səbəbdən doktor Saundararacan xəstələnməmək üçün ən yaxşı yolun koronavirusa qarşı peyvənd vurdurmaqdan ibarət olduğunu bildirir.

Ümumdünya Səhiyyə Təşkilatının açıqlamasında isə "Omicron" ştamı COVID-19 üzərində məğlubiyyətin xəbərdarlığıdır" ifadəsi yer alıb. ÜST-nin baş elmi rəsmisi də adamları koronavirusun "omicron" variantından qorxuya düşməməyə çağırıb. Sumya Svaminatan bunu da deyib ki, mövcud vaksinlərin "omicron"a görə modifikasiyasına ehtiyac ola biləcəyinə dair ehtimal yürütmək hələ çox tezdir. Xanım Svaminatan "Reuters" agentliyinə habelə deyib ki, "omicron"un dünya boyunca dominant ştam olub-olmayacağını da hələlik demək mümkün deyil. "Omicron" variantı artıq Asiya, Afrika, Amerika qitələrində, Yaxın Şərq və Avropada qeydə alınıb. Svaminatan deyib ki, virusun bu variantına qarşı tədbirlər hələ müəyyənləşdirilməyib: "Çoxmu narahat olmalıyıq? Biz hazırlıqlı və ehtiyatlı olmalıyıq, panikaya düşməməliyik, çünki hər halda bir il əvvəlki vəziyyətdə deyilik. Bütün dünyadakı yoluxmaların 99 faizi "Delta" ştamı ilədir. Təzə variant daha yoluxucu olmalıdır ki, dominantlığı "Delta"dan ala bilsin. Bu mümkündür, amma proqnozlaşdırmaq mümkün deyil. "Omicron" ştamı indiyədək 20-dən çox ölkədə qeydə alınıb, amma "Delta" hələ ki, əsas ştam olaraq qalır". Svaminatan deyib: "Gözləməliyik. Ümid edək ki, təzə variant daha yumşaq olsun Lakin bu ştam haqqında bütövlükdə fikir söyləmək hələ çox tezdir".

**İnfeksionist Mərdan Əliyev "Şərq"ə açıqlamasında "Omicron" ştamında insan geninin aşkar edilməsinin pandemiyada müsbətə doğru addım olduğunu dedi:**

- Əlbəttə, tədqiqatlar sayəsində belə bir nəticəyə gəlinməsi müsbət haldır. Bu o deməkdir ki, koronavirus ənənəvi soyuqdəymə virusu şəklini (bildiyimiz respirator infeksiyalar) almaqdadır. Virusun xəstəliktörətmə qabiliyyəti getdikcə zəifləyir. Bu virusun genetik quruluşu adi qrip virusuna oxşayır. Əslində tarixən pandemiyalar məhz belə bitir. Mülayim gedişli xəstəliklərə çevrilir. Virusla bağlı 30 genetik mutasiya baş verib. Nəticədə virusun yoluxdurucuku sürəti artır, vaksinlərin təsiri azalır. Amma müsbət nəticə həm də budur ki, virusun yoluxma sürətinin artmasına, vaksinlərin təsirsiz qalmasına rəğmən xəstəlik mülayimləşir, müalicəyə daha çox tabe olan xəstəliyə çevrilir, ölüm faizləri azalır, kütləvi yoluxma baş verir, insanlarda kütləvi immunitet formalaşır və pandemiya sönməyə doğru gedir.

**Məlahət Rzayeva**

# Brüsseldə keçiriləcək görüşə artıq ehtiyac qalmayıb

## Ermənistan hakimiyyəti Zəngəzur dəhlizinin açılmasına razılaşacaq



### “Paşinyanın Kremlin tələblərinə boyun əyməkdən başqa çarəsi yoxdur”

**İsveçin paytaxtı Stokholm şəhərində keçirilməsi planlaşdırılan Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü baş tutmadı. Azərbaycan Xarici İşlər Nazirliyinin açıqlamasında görüşün reallaşmamasının səbəbləri açıqlandı.**

Qeyd olundu ki, Stokholm şəhərində ATƏT-in Nazirlər Şurasının 28-ci iclasından öncə Minsk qrupunun həmsədrləri Azərbaycan və Ermənistan nazirlərinin növbəti görüşünün keçirilməsi təklifi ilə çıxış ediblər. Lakin nəzərdə tutulan görüşdən bir neçə saat öncə Ermənistan tərəfinin təxribatı baş verib. Ermənistan parlament üzvlərinin Xankəndinə qanunsuz səfər etməsi ilə bağlı məlumat yayılıb. Azərbaycan tərəfi Ermənistanın bu təxribatına cavab olaraq, Stokholmda iki ölkə nazirinin görüşünün keçirilməsini məqsədəuyğun hesab etməyib: ”Göründüyü kimi, iki ölkə arasında münasibətlərin normallaşdırılması istiqamətində Azərbaycan tərəfindən addımların atılmasına baxmayaraq, Ermənistan hərbi-siyasi təxribatlarını davam etdirir. Ermənistanın bu mövqeyi bölgədə sülh quruculuğu səylərinə xələl gətirir”. Daha sonra açıqlama verən Minsk qrupunun həmsədrləri Stokholmda xarici işlər nazirlərinin görüşünün baş tutmamasından təəssüfləndiklərini deyiblər. Vasitəçilər növbəti görüşə çağırış edərək tərəfləri bir araya gətirməyə hazır olduqlarını söyləyiblər: ”Sentyabrda Nyu-Yorkda və noyabrda Parisdə başlanmış müzakirələrin davam etdirilməsi vacibdir”.

**XİN rəhbərlərinin görüşü ilə bağlı həmsədrlərin canfəşanlığını ”Şərq”ə təhlil edən Milli Cəbhə Partiyasının sədr müavini Məhəmməd Əsədullazadə deyib ki, Minsk qrupunun təşəbbüsü ilə təmasların baş tutmaması Bakının ziyanına yox, xeyrinədir.** Politoloqa görə, Soçi görüşündən sonra proseslər Azərbaycanın lehinə cərəyan edir: ”26 noyabrda Soçidə Azərbaycan, Ermənistan və Rusiya liderlərinin imzaladığı Soçi Bəyannaməsi icra olunacaq. İrəvan nə qədər boyun qaçırsa da, Zəngəzur dəhlizini qəbul etmədiklərini elan etsələr də, Ermənistanın Kremlin tələblərinə boyun əyməkdən başqa çarəsi yoxdur. Nikol Paşinyanın ötən həftə keçirdiyi qapalı iclasda dəhlizin açılmasının vacib olduğunu xüsusi qeyd etməsi də bunu göstərir. Hazırda İrəvanla Bakı arasında konfedensial danışıqların getdiyi göz önündədir. Məhz ona görə də Azərbaycan tərəfi 10 erməni hərbçini Ermənistana verdi. Ermənilərin mina xəritələri ilə dəyişdirildiyi qeyd edilsə də, pərdə arxasında Azərbaycanın lehinə gedişlər və razılaşmalar gedir. Ermənistan hakimiyyəti Zəngəzur dəhlizinin açılmasına gedəcək. Artıq Brüsseldə keçiriləcək görüşə də ehtiyac qalmayıb. Böyük ehtimal ki, erməni lobbisi Brüssel görüşündən yararlanaraq, prosesi pozmağa, Minsk qrupunun ”önəmini” yenidən qabartmağa çalışacaq. İndiki məqamda belə məsələlər Azərbaycan üçün faydasızdır. Bu mənada Stokholmda Azərbaycan-Ermənistan XİN rəhbərlərinin görüşünün alınmaması bizim üçün müsbətdir. Minsk qrupunun prosesdə yer almamasına çalışmalıyıq. Ermənistan tərəfi fərqindədir ki, öhdəliklərə əməl etməyəcəyi təqdirdə, ciddi hərbi təzyiqlərə məruz qalacaq. O səbəbdən Minsk qrupundan özünə ”qalxan” düzəltməyə çalışır”.

**İsmayıl Qocayev**



# İrəvan mina xəritələrini təzyiq altında təhvil verib

## Çünki üçtərəfli bəyanatın icrasında problemlər olsa, burada Rusiyanın məsuliyyəti yaranacaq

**Azərbaycan humanizm prinsiplərini əsas tutaraq dekabrın 4-də daha 10 nəfər erməni hərbi qulluqçunu Ermənistan tərəfinə təhvil verib. Eyni zamanda aparılmış danışıqlar nəticəsində İrəvan hökuməti işğaldan azad olunan digər ərazilərin mina xəritələrini Azərbaycana təqdim edib.**

Ermənistana təhvil verilənlər 16 noyabrda Kəlbəcər istiqamətində törədilən təxribatın qarşısı alınarkən saxlanılan şəxslər olublar. Mübadilə Rusiya Müdafiə Nazirliyinin vasitəçiliyi ilə baş tutub. Alınan xəritələr əvvəlki 3 rayondan - Ağdam, Füzuli və Zəngilandan başqa bütün əraziləri əhatə edir. Şübhə yox ki, budəfəki xəritələrin də doğruluq payı müəmmalıdır. Əvvəlki xəritələrin sadəcə 25 faizi basdırılan minaların yeri ilə uyğunluq təşkil edirdi. Mübadilə barədə ”Şərq”ə fikirlərini bölüşən siyasi şərhçi Asif Nərimanlı deyib ki, bundan öncə verilən xəritələrin 25 faizi doğru çıxdığına görə, Bakı minalanmış ərazilərin yox, minaların basdırıldığı yerlərin xəritələrinin verilməsi tələbini qoydu. Analitik bildirib ki, Ermənistanın bu tələbi yerinə yetirdiyi və indi verdiyi xəritələrin tam dəqiqliyi yenə də şübhəli olaraq qalır: ”Məncə, ”barter”də ilk qazanan tərəf Rusiyadır. Soçi görüşünün ”humanitar razılaşmasını” icra etdi. Avropa İttifaqının Brüssel görüşündə humanitar məsələ üzərindən vasitəçilik etmək imkanını azaldır. Mina xəritələrinin tam dəqiqliyi istisna olsa da, Bakı qazanan tərəfdir. Birincisi, antiterror əməliyyatında saxlanılan və məhkəmə qarşısına çıxarılan erməniləri yox, 16 noyabrda sərhəddə saxlanılan erməniləri verdi. Bununla Qarabağda baş verənlərin ”daxili məsələmiz” olduğu mövqeyindən geri çəkilmədi. İkincisi, sərhəddə saxlanılan 10 erməni hərbçiyə qarşı bütün ərazilərin mina xəritələrini əldə etdi. Üçüncüsü, Ermənistanın Brüssel görüşünün gündəmini formalaşdırmaq imkanını azaltdı”. Analitik əlavə edib ki, ”barter”də ən mühüm məqam bütün ərazilərin mina xəritələrinin verilməsi və ”mina xəritəsi” mövzusunun müəyyən mənada aradan çıxmasıdır: ”Ermənistan Bakıda həbsdə olan ermənilərin qaytarılması məsələsindən əl çəkməyəcək. Bu məqam Bakıya əlindəki ”kart”dan daha səmərəli istifadə etmək, dəqiq olmayan xəritələrdən daha çox şey qazanmaq imkanı verir”.

> Soçi görüşündən sonra Bakı prosesi sürətləndirmək üçün sistemliliyi yeni müstəviyə daxil edib. Ermənistan mətbuatında isə Baş nazir Nikol Paşinyanın hansısa güzəştə imza atması barədə məlumatlar dövriyyədədir

**Siyasi şərhçi Aqşin Kərimov da ”Şərq”ə açıqlamasında mina xəritələri ilə bağlı sonuncu məlumatda bir məqama diqqət çəkib.** Analitik vurğulayıb ki, bundan əvvəlki mina xəritələrinin Bakıya təqdim edilməsi ilə bağlı məlumatları Xarici İşlər Nazirliyi açıqlayırdısa, bu dəfə Dövlət Təhlükəsizliyi Xidməti informasiya yaydı: ”Bu o deməkdir ki, Azərbaycan bütün diplomatik korpusları, güc strukturlarını Ermənistana basqı yaratmaq üçün səfərbər edib. Bundan əvvəlki mina xəritələrinin dəqiqliyi 25 faiz idi. Görünür, DTX-nin prosesdə iştirakı həm də ona hesablanıb ki, Azərbaycan tərəfi xəta ehtimalı az olan mina xəritələrini alsın. Deməli, Soçi görüşündən sonra Bakı prosesi sürətləndirmək üçün sistemliliyi yeni müstəviyə daxil edib. Ermənistan mətbuatında isə Baş nazir Nikol Paşinyanın hansısa güzəştə imza atması barədə məlumatlar dövriyyədədir. Mina xəritələrinin təqdimi də İrəvanın təzyiq altında qərarlar verməsinin göstəricisi kimi qəbul edilə bilər. Çünki üçtərəfli bəyanatın icrasında problemlər olsa, burada Rusiyanın məsuliyyəti yaranacaq. Hazırda isə Moskva Qərblə rəqabət şəraitində imza atdığı sənədin yalnız nəzəri xarakter daşımasında maraqlı deyil. Soçi bəyanatından sonra canlanmanın olması Prezident İlham Əliyevlə Ermənistan Baş naziri Nikol Paşinyan arasında dekabrın 15-də Brüsseldə keçiriləcək görüş üçün nəticə əsaslı qərarların olmasını şərtləndirir. Qərb ”biz də sülhyaratma prosesinə töhfə veririk” mesajını aydın şəkildə verməlidir. Əks təqdirdə Moskvanın təşəbbüsü qarşısında neytral mövqedə görünəcək. Qərb Rusiyanın ”pis sülhünə” alternativ ortaya qoymasa, bu, Moskvaya yeni fürsətlər təqdim edilməsinə gətirib çıxaracaq”.

**İsmayıl Qocayev**

# Sınaqlardan üzüağ çıxdı...

### “Hürkuş” ordumuzun gücünə əlavə güc qatacaq





**Türkiyəyə məxsus ”Hürkuş” tipli təlim təyyarəsi Azərbaycanda sınaq uçuşları keçirib. Azərbaycanlı və türkiyəli pilotlar təyyarənin üzərində iki ölkənin bayrağını dalğalandırıblar.**

### “Təyyarə təkcə təlimlərdə deyil, döyüşlərdə də özünü göstərəcək”

Azərbaycan Ordusunun Hərbi Hava Qüvvələrinin komandanı, general-leytenant Ramiz Tahirov və Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçı uçuşları izləyiblər. Səfir tviter səhifəsində uçuşla bağlı paylaşım edərək ”Bu gün Azərbaycanda ”Hürkuş” uçurduq” sözlərini yazıb. Türkiyənin Müdafiə Sənayesi Komitəsinin rəhbəri İsmayıl Dəmir də bildirib ki, Azərbaycan Türkiyənin ”Hürkuş” təlim təyyarəsinə maraq göstərir. Komitə sədrinin sözlərinə görə, ”TCG Anadolu” desant gəmisinin 2022-ci ildə istifadəyə verilməsi üçün səylər göstərilir: ”Gəmidə hücum və digər PUA-ların yerləşdirilməsi layihəsi davam edir. Azərbaycan bu layihədə maraqlıdır. Ümid edirik ki, yaxın gələcəkdə bu istiqamətdə irəliləyiş əldə edəcəyik”.

Məlumat üçün bildirək ki, Türkiyə Hərbi Hava Qüvvələrinin istifadəsinə verilən ”Hürkuş” təlim təyyarəsi NATO-ya üzv ölkələrin ordularında da istifadə olunacaq. Yeni nəsil əsas təlim təyyarəsi sayılan ”Hürkuş”un inkişaf proqramı 2006-cı ilin mart ayında Müdafiə Sənayesi Katibliyi ilə TUSAŞ arasında imzalanmış müqavilə ilə qüvvəyə minib. Gecə-gündüz fəaliyyət göstərə bilən ”Hürkuş” təlim təyyarəsi naviqasiya, gecə və qol uçuşu təlimlərini asanlıqla həyata keçirə bilir. Təyyarənin dayanıqlılığı, zədələrə dözümlülüyü də uğurla sınaqdan keçirilib. ”Hürkuş” Avropa Mülki Aviasiya Təşkilatından sertifikat alan ilk türk təyyarəsidir. **Təlim təyyarəsinə verilən ”Hürkuş” adının maraqlı tarixi və Azərbaycanla bağlılığı da var. ”Şərq” qəzetinin baş redaktoru, tarix üzrə fəlsəfə doktoru, ”Nargin adasında türk əsirləri” kitabının müəllifi Akif Aşırlı vurğulayıb ki, ”Hürkuş” adı onun zehnində Qafqaz cəbhəsində əsir düşən, daha sonra Azərbaycanın milli qüvvələri tərəfindən Nargin adasından qaçırılan ilk türkiyəli pilot kimi qalıb.** Baş redaktor bildirib ki, Nargin adasındakı türk əsirlərin qaçırılaraq İran üzərindən saxta pasportlarla Türkiyəyə göndərilməsini araşdırdığı zaman Türkiyənin ilk peşəkar pilotunun da bu siyahıda olduğunu tarixi qaynaqlarla müəyyənləşdirib: ”Türk pilot Vecihi Hürkuş Qafqaz cəbhəsində Rus hərbi qüvvələrinin bir təyyarəsini vurub sıradan çıxarıb, sonra yaralı halda əsir düşüb və Nargin adasına gətirilib. Bir qədər sonra Azərbaycan türkləri tərəfindən adadan qaçırılıb, libası dəyişdirilib və saxta pasportla Astara üzərindən İrana keçirilib. Vecihi bəy İstanbula qayıdaraq Atatürkün Anadoluda başlatdığı İstiqlal hərəkatına qatılıb, yunan uçaqlarına zərbələr vurub. Daha sonra hərbi helikopterlərin istehsalına başlayıb. 1969-cü ildə Ankarada vəfat edib. Tarixə, taleyə bax! 1918-ci ilin bir bahar günü azərbaycanlı qardaşları tərəfindən ölüm adasından qaçırılan Hürkuş bəyin adını daşıyan ”Hürkuş” təyyarələri 100 ildən sonra qardaşlarının səma təhlükəsizliyinə xidmət üçün Bakıya gətirilib. Budur tarixi həqiqət, budur qardaşlıq, eyni soy-kökün daşıyıcısı olmaq”.

**Hərbi ekspert, ehtiyatda olan polkovnik Üzeyir Cəfərov da ”Şərq”ə deyib ki, Azərbaycan daim Türkiyənin hərbi avadanlıqlarına maraq göstərib. Ekspertin sözlərinə görə, Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov Türkiyədə səfərdə olarkən yeni hərbi texnikaların alınması ilə bağlı müzakirələr aparılıb:** ”Böyük ehtimalla yaxın günlərdə Azərbaycanda Türkiyəyə məxsus yeni hərbi texnikaları görəcəyik. Konkret ”Hürkuş” təlim təyyarələrinin də bizim üçün böyük əhəmiyyəti var. Pilotlarımızın döyüş hazırlığını, manevr imkanlarını artırmaq üçün təlim təyyarələrindən istifadə çox vacibdir. Artıq bizim pilotlarımız ”Hürkuş”la ilk təlim uçuşlarını həyata keçiriblər və çox məmnun qalıblar. Hərbi mütəxəssislər də ”Hürkuş” haqqında müsbət fikirdədir. Bu təyyarələrin ordumuzun gücünə əlavə güc qatacağı şübhəsizdir. ”Hürkuş” adətən təlim təyyarəsi kimi təqdim olunsa da, döyüş əməliyyatlarından istifadəsi mümkündür. Hazırda bu tipli təyyarələrin üzərində iş aparılır, əlavələr edilir. Yaxın zamanda ”Hürkuş” real döyüşlərdə də özünü göstərəcək”.

**İsmayıl Qocayev**

**İsmayıl Qocayev**



# Qərb regionda gərginliyin artmasında maraqlıdır

## Məqsəd Rusiyaya qarşı yeni sanksiyalar paketini qəbul etməkdir

**Rusiya-Ukrayna münasibətləri gərgin olaraq qalmaqdadır. Vəziyyətin kifayət qədər kritik olduğunu bəyan edən Ukraynanın Müdafiə naziri Aleksey Reznikov deyib ki, Rusiyanın irimiqyaslı hücumu zamanı Böyük Britaniya, Kanada və ABŞ öz qoşunlarını ölkənin cəbhə mövqelərinə çevriləcək mühüm bölgələrinə yerləşdirməlidir.**

Müdafiə naziri anqlo-sakson müttəfiqlərini NATO-dan kənarda Ukraynaya yardım göstərməyə, xüsusən də ölkəyə daha çox hərbi təlimatçı göndərməyə çağırıb: ”Yaxşı olardı ki, kanadalı təlimatçılar Xarkovda, Mariupolda, Kramatorskda, Odessada və Zmeyni adasında yerləşdirilsinlər. Sizin burada olmağınız ruslar üçün ”yaxşı” əlamət olacaq”. Rusiya XİN rəhbərinin müavini Aleksandr Qruşko isə bildirib ki, Ukrayna məsələsini yalnız Minsk razılaşmaları ilə həll etmək mümkündür. Nazir müavininin sözlərinə görə, hər kəs etibarlı siyasi həllin danışıqlar masası arxasında tapılacağını yaxşı başa düşür: ”Söhbət təkcə Ukraynadan deyil, bütövlükdə Avropanın və Qara dəniz regionunun təhlükəsizliyindən gedir. Əgər bizim tərəfdaşlarımız bu mövzunun kompleks halda gündəmdən çıxmasını istəyirlərsə, Minsk tədbirləri çərçivəsində hərəkət yeganə yoldur”. O, ”Luqansk xalq respublikası” ərazisində dağıntı və ölümlərin Ukrayna ordusunun nəzarətində olan ərazilərdən 5 dəfə çox olduğunu bildirib: ”Bu faktın özü kimin günahkar olduğu və məsuliyyət daşıdığına aydınlıq gətirir”.

> “Bütün hallarda Rusiyanın Ukraynaya “hücum planı” bəlli səbəblərə görə o qədər də inandırıcı görünmür”

**Rusiyalı senator Aleksey Puşkov iddia edir ki, NATO ölkələri Ukrayna uğrunda döyüşməyəcək. Çünki o, alyansın üzvü deyil:** ”Bu o deməkdir ki, müqavilənin 5-ci maddəsi ona şamil edilmir və alyansın Ukraynanı müdafiə etmək öhdəliyi yoxdur. Buna görə də Ukrayna Qərbi açıq-aydın qaçqınlarla qorxutmağa çalışır. Kiyevdə başqa arqumentlər yoxdur”. Xatırladaq ki, Stokholmda Rusiya Xarici işlər naziri Sergey Lavrovla ABŞ Dövlət katibi Entoni Blinken arasında Kiyevdəki hadisələrin müzakirəsi zamanı gərgin mübahisə yaşanıb. Buna səbəb Rusiyanın Ukraynaya hücum edəcəyi təqdirdə Qərbin cavab tədbirlərinin müzakirəsi olub. Blinken NATO-nu müdafiə alyansı adlandırıb və bildirib ki, Ukraynanın eks-prezidenti Viktor Yanukoviçə sadiq qüvvələr Kiyevdə dinc nümayişçilərə atəş açıb və yüzdən çox insanı öldürüblər. Lavrov isə Blinkenə xatırladıb ki, Kiyevdə 2014-cü il hadisələri dövlət çevrilişi idi: ”O, həmçinin NATO və Avropa İttifaqını Rusiyanı təhdid etməkdə ittiham edib”.

**Tərəflər arasındakı gərginliyi ”Şərq”ə analiz edən ”Atlas” Araşdırmalar Mərkəzinin eksperti Samir Hümbətov deyib ki, ABŞ kəşfiyyatı tərəfindən yayılan informasiyaya görə, Rusiya 175 minlik qoşunla Ukraynaya hücum etməyə hazırlaşır.** Analitikin fikrincə, Qərbdən yayılan bu tipli xəbərlərin bir neçə səbəbi var: ”Məqsəd regionda gərginliyi artırmaq və Rusiyaya qarşı yeni sanksiyalar paketini qəbul etməkdir. Həm Qərb cəbhəsi, həm də Rusiya vəziyyəti kritik hala gətirməklə bir-birinə mesaj vermək istəyirlər ki, müharibə olarsa, Ukrayna hərbi poliqona çevrilər. Rusiya daxilində iqtisadi vəziyyətin ağırlaşması və pandemiyanın yaratdığı ciddi iqtisadi fəsadlar Kremli bu məsələdə tələsik qərar verməməyə vadar edir. Müdafiə Nazirliyində yer alan generalitet içində xeyli sayda Ukrayna əsilli hərbçinin olması da məsələnin digər önəmli tərəflərindən hesab edilir. Moskva yaxşı başa düşür ki, istənilən təcavüz nəticəsində sadəcə sanksiyalara məruz qalmayacaq. ABŞ-ın təkidi ilə NATO-nun prosesə qoşulması da baş verə bilər ki, bu, üçüncü dünya müharibəsinə gətirib çıxarar. Genişmiqyaslı müharibə isə Rusiyanın sürətlə parçalanması deməkdir. Kreml bunu gözə almaqdan çəkinir. Kiyev Moskvanı Türkiyə ilə hərbi əməkdaşlıqla da qorxudur. Türkiyənin Ukrayna ilə bağlayacağı müqavilə əsasında savaşa qoşulması regional və qlobal səviyyədə qarşısı alınmaz fəlakət deməkdir. Yəni Rusiyanın Ukraynaya ”hücum planı” bəlli səbəblərə görə o qədər də inandırıcı görünmür. Amma beynəlxalq vəziyyət tez-tez dəyişir və gözlənilməz hadisənin baş verməyəcəyinə kimsə təminat verə bilməz”.

# Əziz Sancar arzusuna qovuşdu, Şuşada namaz qıldı

## “Qarabağ zəfəri Türkiyənin Qurtuluş savaşından sonra türk dünyasının ən böyük və ən önəmli zəfəridir”






Nobel mükafatçısının Azərbaycanda olması qürurverici və tarixi hadisədir

**Xəbər verdiyimiz kimi dünya şöhrətli alim, ABŞ-ın Şimali Karolina Universitetinin professoru, Kimya üzrə Nobel mükafatı laureatı, DNT sahəsində mühüm kəşfləri ilə tanınan, dünya şöhrətli alim Əziz Sancar Azərbaycanda səfərdədir. İqtisad Universitetinin İqtisadi Forumunda iştirak etmək üçün Bakıya gələn Əziz Sancar forumdan əlavə bir sıra mühüm görüşlər keçirib, konfranslar təşkil edib.**

Eyni zamanda gənc tədqiqatçılarla, olimpiada qalibləri və bir qrup şəhid övladları ilə bir araya gəlib. Alimin Qarabağa, Şuşaya səfəri də təşkil olunub. Əziz Sancar Prezident İlham Əliyev tərəfindən də qəbul edilib. Tanınmış alim Vətən müharibəsində Qələbə münasibətilə Prezidenti təbrik edib və bu Qələbədən bütün türk dünyasının qürur hissi keçirdiyini deyib. Dövlət başçısı da Vətən müharibəsi zamanı Əziz Sancarın Azərbaycanın haqlı mövqeyini şəxsən dəstəkləməsini və təbrik etməsini yüksək qiymətləndirərək bunun ölkəmizin haqq səsinin dünyada ucaldılması işinə xidmət etdiyini vurğulayıb. Ölkə rəhbəri müharibə dövründə ermənilərin Gəncəni raket atəşinə tutması nəticəsində valideynlərini itirmiş uşağa Əziz Sancarın yardım etməsini xatırladaraq, bunu böyük insanpərvərlik nümunəsi kimi qiymətləndirib. Əziz Sancarı türk dünyasının önəmli şəxsiyyəti kimi dəyərləndirən Prezident Azərbaycan xalqının ona həm bir alim, həm də vətənpərvər insan kimi böyük hörmət və sevgi bəslədiyini xüsusi olaraq vurğulayıb. Prezident İlham Əliyevin Sərəncamı ilə ölkəmizin beynəlxalq humanitar əlaqələrinin inkişafında xidmətlərinə görə Əziz Sancar ”Azərbaycan Respublikası Prezidentinin Fəxri Diplomu” ilə təltif olunub.

Dünən dünya şöhrətli alimin jurnalistlərlə brifinqi də təşkil olunub. Prezidentlə görüşündən bəhs edən Əziz Sancar dövlət başçısı ilə Qarabağ savaşından danışdıqlarını bildirib: ”ATƏT-in Minsk qrupunun, təxminən, 30 il davam edən ikiüzlü siyasətinə toxunduq. Minsk qrupunun məqsədi o idi ki, Qarabağ ermənilərdə qalsın. Amma plan baş tutmadı və Azərbaycan öz torpaqlarını işğaldan azad etdi. Görüşdə dedim ki, türk əsilli aliməm. Türk olmanın önəmli yönü də elm sahəsində güclü olmaqdır. Əgər bilikli olmasaq, xarici qüvvələrin etdiklərinə qarşı çıxmaq gücümüz olmaz və onların istədiklərini etmək məcburiyyətində qalarıq. Bu fikirlərimi cənab Prezident İlham Əliyev də dəstəklədi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşümdə də eyni fikirləri söyləyirdim. Vurğulayırdım ki, təməl biliklərə hər şeydən əvvəl üstünlük verilməlidir. Texnologiyaların inkişafı da təməl biliklər əsasında düzgün qurula bilər. Bu da türk dünyasına fayda verməkdən başqa, həm də insanlıq qarşısında borcumuzdur”.

Əziz Sancar bəyan edib ki, onun üçün Qarabağ zəfəri Türkiyənin Qurtuluş savaşından sonra türk dünyasının ən böyük və ən önəmli zəfəridir: ”Buna görə böyük sevinc hissi yaşadım və 44 gün müddətində prosesləri izlədim. Şuşa öz tarixinə görə türk dünyasının mədəniyyət mərkəzi kimi qəbul edilir. Özümə əhd etmişdim ki, Şuşa azad olunanda ora gedib, namaz qılacağam. Çox şükür ki, bu arzum gerçəkləşdi”. Alim vurğulayıb ki, elmlə məşğul olmaq istəyən azərbaycanlı tələbələrə inanır və onunla çalışmağa gələnləri qəbul etməyə hazırdır: ”Azərbaycan bir çox qida məhsullarını xaricdən idxal edir. Ona görə də bu sahədə təhsil vermək və elm adamları yetişdirmək önəmlidir. Azərbaycanın bu işlər üzərində çalışması lazımdır”.

**Nüfuzlu elm xadiminin Azərbaycana gəlişini və keçirdiyi mühüm görüşləri ”Şərq”ə dəyərləndirən türkoloq-alim, AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi Faiq Ələkbərli deyib ki, Əziz Sancar sadəcə Türkiyənin deyil, bütün türk dünyasının fəxridir.** F.Ələkbərlinin sözlərinə görə, Nobel mükafatçısının Azərbaycanda səfərdə olması və önəmli təmasları çox vacibdir: ”Əziz Sancarın Azərbaycanda mühüm bəyanatlar səsləndirməsi, Şuşaya səfər etməsi dünyada elmlə məşğul olan, həqiqi elmə inanan kəsim üçün olduqca vacib mesajlardır. Azərbaycan və Qarabağ haqqında həqiqətlərin, erməni işğalı ilə bağlı bəyanların Əziz Sancarın dilindən səslənməsi çox-çox önəmlidir. Digər yandan Əziz Sancar kimi alimlərin Azərbaycana gəlişi, gənc tədqiqatçılarla, tələbələrlə çoxsaylı görüşlər keçirməsi ölkəmizdə elmin inkişafına da mühüm töhfə verəcək. Məhz Əziz Sancar öz çıxışlarında da dəfələrlə bəyan etdi ki, türk dünyası elmi-texniki sahələrdən, müasir texnologiyalardan geri qalmamalıdır. Mən də hesab edirəm ki, türk dövlətləri elm adamlarının mütəmadi səfərlərini təşkil etməli, elmi nailiyyətlər qazanmaq üçün bilik və bacarıqlarını səfərbər etməlidirlər. Hətta ortaq ali məktəblərin yaradılması ideyası da nəhayət reallaşmalıdır. Ümumiyyətlə, Əziz Sancar kimi bir dühanın Azərbaycanda olmasının özü qürurvericidir və tarixi hadisədir. Ümid edirəm, bu tarixi səfər Azərbaycan elmindəki durğunluğun aradan qalxmasına vəsilə olacaq”.

**Alimin Şuşaya səfərini və Şuşa ilə bağlı dünyaya verdiyi mesajları ”Şərq”ə dəyərləndirən millət vəkili Elman Məmmədov isə bildirib ki, Ə.Səncər adı türk dünyasının tarixinə qızıl hərflərlə yazılan böyük şəxsiyyətlərindən biridir:**

”Onun Azərbaycana gəlişi, Cənab Prezidentimizlə görüşü, Şuşaya səfəri və fikirlərini ifadə etməsi ondan xəbər verir ki, Şuşa müqəddəs bir ziyarətgaha çevrilib. Görkəmli alim bununla Azərbaycan və türk dünyası əleyhinə olan ölkələrə də bir mesaj verdi. Buna görə də dünya şöhrətli alimin addımını yüksək qiymətləndirmək lazımdır. Eyni zamanda türk dünyasının böyük qurtuluş savaşından sonra tək 44 günlük müharibədə qələbə qazandıq. Bu yalnız Ermənistana deyil, eyni zamanda dünyanın çox böyük güc mərkəzlərinə qarşı idi. 200-250 ildən sonra ilk dəfə onlar üzərində öz qələbəmizi elan etdik”.

*E.Məmmədov həmçinin əlavə edib ki, görkəmli şəxsiyyətin elmə münasibəti müqəddəs kitabımızın ayələrində də öz əskini tapıb:* ”Zamanında Həzrəti peyğəmbərimiz bu fikirləri səsləndirib. İnsanlıq mövcud olandan bu günə qədər və sonra elmə, biliyə yüksək səviyyədə qiymət verilib. Həmçinin veriləcək. Hansı dövlət güclü, inkişaf etmiş olmaq istəyirsə, o, elmə, biliyə yer verməli, müdafiə etməlidir. Elmsiz inkişaf, güclənmək, dünyaya inteqrasiya, nüfuz qazanmaq mümkün deyil. Hesab edirəm ki, Azərbaycan Respublikasında bu məsələ həmişə diqqətdə saxlanılıb. Böyük alimin elmə olan münasibəti hamı tərəfindən alqışlanan, bəyənilləndir. Təbii ki, hər hansı dövlət cəhalət içində yaşasa, elmsiz olsa, o dövlətin nəyi ola bilər ki?! Ona görə də təhsilə, bu sahədə çalışanlara hər zaman diqqət və qayğı göstərmişik, göstəririk və göstərəcəyik”.

**İsmayıl Qocayev,**
**Sücayət Mehti**



**”Soçi görüşündən sonra maraqlı hadisələr baş verib. Həmin görüşdən sonra Qarabağdakı separatçıların əski parçaları və Ermənistanın bayraqları yığışdırılıb”.**

# Qış gəldi, dərd gəldi...

## Qarabağ erməniləri soyuq havalardan sağ çıxmaq üçün Bakıdan mərhəmət umur

Bu barədə beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli deyib. Siyasi təhlilçi bildirib ki, İrəvanın tələbi ilə separatçıların mövqelərində, habelə binaların üzərində asılmış bütün Ermənistan bayraqları, habelə separatçılara məxsus əski parçası yığışdırılmağa başlanılıb: ”Erməni mediası yerli hökumətə istinadən yazır ki, buna səbəb Soçidə Azərbaycan tərəfinin tələbidir: - ”Azərbaycan Prezidenti Soçidə birmənalı qaydada bəyan edib ki, əgər Ermənistan və Qarabağ bayraqları yığışdırılmasa, bunu məcburi qaydada həyata keçirəcəklər. Hətta bayraq asılan bütün mövqelər atəşə tutulacaq. Ermənistan hökuməti görüşdən dərhal sonra bu barədə göstəriş verib və dünəndən etibarən bayraqlar yığışdırılıb”. Daha sonra Qarabağdakı separatçılar Bakıya rəsmi müraciət ediblər. Məlumata görə, müraciət təbii qazla bağlı olub. Bakıdan bu qışdan çıxmaq üçün onlara təbii qaz verilməsi xahiş edilib. Qeyd edək ki, uzun illər işğal altında olan torpaqlarımızda yaşayan ermənilərin qaz təchizatını Ermənistan həyata keçirib. Lakin müharibədən sonra, xüsusən də Qafan-Gorus yolu bağlandıqdan sonra Ermənistanın özündə də ciddi sıxıntılar yaranıb. Rəsmi İrəvan bəyan edib ki, Rusiyadan alınan təbii qaz daxili tələbatı ödəmək üçün yetir. Bundan başqa, İrandan maye qaz və boru xətti ilə alınan qazın həcmində də azalma var. Buna səbəb qiymətlərin bahalaşması və logistika məsələsində yaranmış problemlərdir”.

“Ermənistandan Xankəndinə çəkilmiş qaz xətti də sıradan çıxıb”

**Ə.Əlibəyli qeyd edib ki, Qarabağda yaşayan ermənilərin bir başqa problemi də ondan ibarətdir ki, Ermənistandan Xankəndinə çəkilmiş qaz xətti də sıradan çıxıb:** ”Həmin kəmərin keçdiyi ərazilərin böyük hissəsi Ordumuz tərəfindən işğaldan azad edilib və xətlər də nəzarətimiz altına düşüb. Yeni qaz xəttinin çəkilməsi səbəbindən isə sözügedən qaz kəmərinin fəaliyyəti dayandırılıb. Nəticədə, elektrik enerjisi problemi ilə üzləşən separatçılar, müharibədən sonra təbii qaza olan tələbatını da ödəyə bilmir. Qafan-Gorus yolunda Azərbaycan nəzarət-buraxılış məntəqəsi qurmamışdan öncə İrandan Xankəndinə maşınlarla maye qaz daşınsa da, artıq xeyli müddətdir bu proses də dayanıb. Rəsmi Bakının Xankəndidəki separatçılara hansı cavab verəcəyi barədə dəqiq məlumat yoxdur. Hətta bu mövzu ilə bağlı hər hansı açıqlama belə verilmir. Eyni zamanda, Azərbaycan hökuməti separatçıların təbii qazla bağlı müraciətinə müsbət və ya mənfi cavab verəcəyi barədə də hər hansı bir ehtimal mövcud deyil. Yəqin ki, bunun qarşılığında nələrsə tələb olunacaq”.

**İsmayıl**

# "Rus dilini dövlət hesabına edib, türk dilində məktəbləri pullu etmək ayıbdır"



Azər Həsrət: “Rus olmayanların öz uşaqlarını oxutması pullu olmalıdır. Çünki dövlətimiz heç kimi öz ana dilindən başqa dildə oxutmağa borclu deyil”

**”Rus dilində məktəblərlə bağlı qarışıq fikirlər var. Mənim də bu məsələdə həssas olduğumu dostlar bilir. Bəzilərimiz deyirik ki, rus məktəbləri qapadılsın, bəziləri isə deyir ki, yaşasın”.** Bu sözləri siyasi şərhçi, tanınmış jurnalist Azər Həsrət deyib. Ekspert bildirib ki, bu məsələdə daha münasib seçim etmək lazımdır: ”Rus millətindən olan əhalimiz var. Konstitusiyaya görə, onların da öz dillərində təhsil almaq hüququ var. Bu hüququ dövlət təmin etməlidir. Həmin kəsimin hüquqlarını təmin etmək baxımından rusların kompakt yaşadığı ərazilərdə dövlət hesabına rus məktəbləri qalmalıdır. Lakin həmin məktəblərdə rus olmayanların öz uşaqlarını oxutması pullu olmalıdır. Çünki dövlətimiz heç kimi öz ana dilindən başqa dildə oxutmağa borclu deyil və Konstitusiyamızın da belə bir tələbi yoxdur. Əlavə olaraq, istəyənlər rus dilində təhsil verən özəl məktəblər aça bilər. Necə ki, ingilis, fransız, hətta türk dillərində məktəblər var, eləcə də rus dilində məktəblər olsun. Yeri gəlmişkən, rus dilini dövlət hesabına edib türk dilində məktəbləri pullu etmək də bir başqa ayıbdır ki, buna da vaxtı çatınca yenidən qayıdarıq”.

**İsmayıl**

# Əmək müqaviləsinə çoxdan xitam verilib

## Nazirlik “Azərbaycan məktəbi”nin sabiq baş redaktoru ilə bağlı məsələyə münasibət bildirib



**Təhsil Nazirliyi qurumun mətbu orqanı olan ”Azərbaycan məktəbi” jurnalının baş redaktoru olmuş Rahil Nəcəfovun AMEA əməkdaşlarının pulunu mənimsəməsi ilə bağlı məsələyə münasibət bildirib.**

Nazirlikdən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, ”Azərbaycan məktəbi” jurnalının baş redaktoru Nəcəfov Rahil Nadir oğlu ilə bağlanmış əmək müqaviləsinə 19 yanvar 2021-ci il tarixindən xitam verilib.

Qeyd edək ki, məlumata görə, R. Nəcəfov akademiyanın bir neçə əməkdaşını Təhsil Nazirliyində işlə təmin edəcəyi, xaricdə aldıqları diplomların ölkəmizdə tanınacağı, dissertasiya işinin yazılacağı, eləcə də xarici nüfuzlu jurnallarda məqalələrinin dərc ediləcəyinə dair inandıraraq onlardan 3-5 min manat məbləğində pul tələb edib və əməkdaşların pulunu mənimsəyib. Zərərçəkmiş şəxslər Rahil Nəcəfovun hüquqazidd əməlləri ilə bağlı polis orqanlarına şikayət ediblər.

Faktla bağlı araşdırma aparılır.

*O, 2018-2021-ci illərdə Təhsil Nazirliyinin əsas mətbu orqanı olan ”Azərbaycan məktəbi” jurnalının baş redaktoru olub.*



# Mir Möhsün Nəvvabın Cıdır düzündəki məzarı bərpa olunub

**Azərbaycanın məşhur şairi və naşiri Mir Möhsün Nəvvabın Şuşanın Cıdır düzündə yerləşən və işğal dövründə ermənilər tərəfindən dağıdılan məzar daşı bərpa olunub.**

Bunu Milli Məclisdə Xankəndini təmsil edən deputat Tural Gəncəliyev tvitter səhifəsində yazıb.

”Şuşanın Cıdır düzündə Azərbaycanın məşhur naşiri və şairi Mir Möhsün Nəvvabın məzar daşını mədəniyyətsizlər dağıdıblar. Müharibəni hətta ölülərə qarşı da aparıblar”, - o bildirib.

*Qeyd edək ki, Şuşanın məşhur ədiblərindən olan Molla Pənah Vaqifin də ermənilər tərəfindən dağıdılmış məqbərəsi Qarabağın incisi işğaldan azad edildikdən sonra Azərbaycan hökuməti tərəfindən təmir edilib. Həmçinin Şuşada təxminən 30 illik fasilədən sonra yenidən Vaqif Poeziya Günləri keçirilib.*

# Britaniya şirkəti Zəngilanda...

## “Bu, ölkəmizin və bölgənin təhlükəsizliyi deməkdir”

**Azərbaycan hökuməti ölkədə qızıl, gümüş və mis hasilatı ilə məşğul olan Böyük Britaniyanın ”Anglo Asian Mining Plc” (AAM) şirkətinin işçilərinə müqavilə əsasında işğaldan azad olunan Zəngilana girişinə icazə verib.**

”Vejnəli” müqavilə sahəsi Cənubi Qərbi Azərbaycanın Zəngilan rayonunda yerləşən təxminən 300 kvadrat kilometr ərazini əhatə edir. Müqavilədə Azərbaycanın payı 51 faiz, ”Anglo-Asian Mining Plc.” şirkətinin payı 49 faiz təşkil edir.

Bəs ”Vejnəli” yatağında 49 faiz payı olan Böyük Britaniya şirkətinin Qarabağda olmağı Azərbaycan və bölgə üçün nə kimi dvidentlər vəd edir?

*Sualımızı cavablandıran siyasi şərhçi Asif Nərimanlı ”Şərq”ə bildirib ki, sözügedən şirkətin bölgədə olmağı Böyük Britaniya dövlətindən də dəstək qazanmağımız deməkdir:*

”Bu iki ölkə arasında böyük bir layihədir. Böyük Britaniyanın işğaldan azad edilmiş bölgəyə gəlməsi bölgənin təhlükəsizliyi ilə sıx bağlıdır. Həmin şirkətin bölgədə olmağı bölgənin və ölkəmizin təhlükəsizliyinin müdafiəsi deməkdir. Qlobal layihələr həyata keçirən böyük şirkətlərin dövlətlərinin də həmin bölgənin təhlükəsizliyinə marağı olur. Bu həmin bölgənin təhlükəsizliyinin də qarantıdır. Bir sözlə adıçəkilən şirkətin Zəngilanda olması Böyük Britaniyadan dəstək qazanmağımız anlamına gəlir. Bu hadisə regionda iqtisadi inkişafa da müsbət təsir göstərəcək. Britaniya şirkəti bölgəyə yatırım edirsə, bu digər ölkələrə də nümunə olacaq. Nəticədə digər dövlətlər də Azərbaycana investisiya yatıra bilər”.



“İranın Azərbaycana qarşı ola biləcək təhdidlərinin də qarşısını ala bilər”

*A.Nərimanlının fikrincə, Zəngilanın yerləşdiyi coğrafi mövqedə Britaniya şirkətinin olmağı İranın Azərbaycana qarşı ola biləcək təhdidlərinin də qarşısını ala bilər:*

”Hazırda İranla Azərbaycanın münasibətləri yaxşıdır, lakin elə bir vəziyyət foramalaşar ki, münasibətlər yenidən gərginləşər. Nəticədə Azərbaycana cənubdan kifayət qədər təhdidlər yaranar. Bu mənada Britaniya şirkətinin bölgədə olmağı cənubdan gələn təhdidlərin qarşısını ala bilər. Digər tərəfdən Türkiyə ilə müttəfiqlik müqaviləmiz var. Əgər hər hansı təhdid olarsa, Türkiyənin müdaxilə etməsi mümkündür”.

**Xanlar Əlibəy**

# Əkrəm Əylisli "Daş yuxular"ında qaldı

## 80 yaşlı yazıçıya 80 dəfə lənət oxuyan, əsərlərini təqdir edən, linç edən də var



**Məlahət Rzayeva**

**İnsanın illərlə qazandığı, topladığı hörməti, sevgini, nüfuzu bir günün, bəlkə də bir saatın içində itirməsi böyük bədbəxtlik olmalıdır, hər halda. Təbii, əgər o adam itirdiklərinin nə olduğunu bilirsə, itirdiklərini itki hesab edirsə, itirdiklərinə üzülürsə, peşmandırsa. Bir çoxumuz yazıçı Əkrəm Əylisliyə bu rakursdan baxırıq; sahib olduğu hörməti-izzəti itirən adam kimi. Hər kəsin fərdi yanaşma bucağı var.**

Kimin üçünsə Əkrəm Əylisli xalqı təhqir edən, xalqın müqəddəs bildiklərinə tüpürən biridir. Kimin üçünsə, yalnız yazıçıdır. Və yaxşı, çox yaxşı, istedadına söz ola bilməyən yazıçı. Kimin üçünsə əsl sənətkardır. Ustaddır. Amma çoxluq, hətta əksəriyyət Əkrəm Əylislinin 2013-cü ilədək yazdıqlarının üzərindən məhz millətimizi, xalqı təhqir etdiyinə görə üz çevirdi. "Daş yuxular"ın bəraət veriləcək bir yanı görünmürdü çünki. Subyektiv fikir sayılmasın deyə, yenə təkrar edirəm ki, yanaşmalar müxtəlif ola bilər. Lakin azlıq çoxluğa tabe olur axı, adətən. Sıradan kənara çıxanları sonra ya ümumiyyətlə sıraya qəbul etmirlər, ya da məcburən sıraya qatırlar. Əkrəm Əylisli, dəyərli şairimiz Rüstəm Behrudinin sözləri ilə desək, "Əkrəm həmişə axına qarşı gedən adam olub". Bir, iki, üçg yaxşı alınıb. Bir dəfə isə alınmadı dag Etiraf edək. Azərbaycan ədəbiyyatına, Azərbaycan nəsrinə ana laylası şirinliyi gətirən Əkrəm Əylisli erməni qadınını Azərbaycan qadınının "başı üzərinə qaldırmaqla", türk-Azərbaycan əsgərini zalım, qaniçən göstərməklə özünü düşmən eşalonunun tam da ortasına qatmış oldu. O eşalondan milli dəstəyə keçmək isə artıq mümkün deyil! Necə deyərlər, qatar gedib. Ox da yaydan çıxıb və xalqın heysiyyətinə sancılıb. Məsəl var, deyirlər, qılınc yarası sağalar, söz yarası yox. Əkrəm Əylisli də milləti sözlə elə yaralayıb ki, sağalana oxşamır.

Bununla belə. Dünən sosial şəbəkələrdə Əkrəm Əylislini doğum günü münasibətilə təbrik edənlər vardı. Təbrikə qoşulanlar, təbriki mənasız, lazımsız sayanlar da.

**Yazıçı Şərif Ağayar feysbuk səhifəsində ustadını təbrik edirdi:**

"Bu gün Əkrəm Əylislinin ad günüdür. Böyük sənətkarı təbrik edirəm! Səsimizi, ruzimizi, səadətimizi oğurlayanların və pul, şöhrət, vəzifə müqabilində bu oğurluğa əl çalanların Əkrəm Əylisliyə hücumunu anlamaq olar, lakin səsi, ruzisi və səadəti oğurlananların "tırka"ya

> "Azərbaycan ədəbiyyatına, Azərbaycan nəsrinə ana laylası şirinliyi gətirən Əkrəm Əylisli erməni qadınını Azərbaycan qadınının "başı üzərinə qaldırmaqla", türk-Azərbaycan əsgərini zalım, qaniçən göstərməklə özünü düşmən eşalonunun tam da ortasına qatmış oldu"

getməsi fəlakətdir. Yazıçı səhv danışsa belə onu susdurmaq olmaz. Yazıçısı susan məmləkətə tanrı Əli Həsənovu, Vüqar Səfərlini hədiyyə edər. Sevərlər sözümüzün var-yoxunu... 30-cu illərdə siyasi konyuktura naminə üzə dirənənləri ittiham edə-edə eyni hərəkəti təkrarlayanlar - tarix sizinlə çox ciddi məzələnir..."

**Ş.Ağayarın statusunun ardınca Ə.Əylisliyə can sağlığı arzulayanlarla yanaşı, ittihamı qəbul etməyənlər də oldu. Fəlsəfə elmləri doktoru, professor Solmaz Rüstəmova-Tohidinin statusu diqqət çəkdi:**

"Nə pul, nə vəzifə, nə şöhrətim var, amma özümü nə "hücumçu", nə də "tırkaya" gedən yox, Əkrəm Əylislinin "şah əsəri" ilə təhqir olunmuş sayıram. Meydan hərəkatı iştirakçılarına olan münasibətinə görə..."Azadlıq, İstefa, Qarabağ" hayqıran gəncləri ibtidai icma dövründə ova çıxıb yalnız 3 səs çıxardan vəhşilərlə müqayisəsinə görə. Həmin Meydanda olmuşam. Erməni tarixçiləri ilə təkbətək vuruşan Ustad və müəllimimiz Ziya Bünyadovun tanınan, eybəcər proobrazını yaradıb "tarixi saxtalaşdıran" ittihamına görə... Pulu, vəzifəsi olmayan, şöhrəti xalqdan gələn, oğlu Qarabağ şəhidi olan vətən aşiqi Xəlil Rzanın tanınan eybəcər proobrazını "millətçi" kimi qələmə verdiyinə görə... Davam edimmi? Yeri gəlmişkən, Əkrəm Əylisli özü bu hakimiyyətdən ala biləcəyi hər şeyi - adlar, mükafatlar, vəzifə, pul və s. almışdı, oğulları da sağ-salamat yanında və yaxşı işlərdə... Anlayıram ki, ədəbiyyatçıların bütün bunlara fərqli, reallığın fövqündə duran baxışı var, ayrı dəyərləri var... Haqqınızı danmırıq... Amma hamı ədəbiyyatçı, yazıçı deyil ki. Oxucunun da oxuduğuna münasibət bildirmək, özünə təhqir görürsə lap "linç" eləmək haqqını siz də qəbul edin. Qəhrəmanınız elə "tırkaya gedən" adlandırdığınız bu "səsi, ruzisi, səadəti oğurlananları" - ilk növbədə qaçqınları, ümumilikdə isə haqqı bu dəfə artıq daha qəddar xarici düşmən tərəfindən tapdalanan, irticaya məruz qalan Xalqı, ÖZ xalqını ikrah və nifrətlə tənbeh edirdi. Şəxsinizə və yaradıcılığınıza böyük hörmətim var, amma sanki Əkrəm Əylislinin daş yuxularından xəbərsizsiniz... gMənim kimilər daxil oxucu qınağı da var idi, amma bu qınağı yazıçı elə də ciddiyə almazdı, oxucusuna (Azərbaycan) münasibəti əsərindən məlum idi. Bu halda "dövlət inzibati terroru" , ümumən normal sayılmasa da, ən təsirli cəza idi, gözləmirdi, amma hətta ondan da öz "xeyrinə" faydalanmaq, dünya qarşısında "ədəbi qurbana" çevrilmək cəhdi də baş tutmadı: Əsəri o səviyyəli əsər deyildi! Hərçənd heç kəs onun qələmini sındırmayıb, niyə "şedevrlərinin" dalı gəlmir? Yazıçıdır, yazsın..."

**2017-ci ildə Əkrəm Əylisliyə 80 illik yubileyi münasibətilə dostu, şair Rüstəm Behrudi sosial şəbəkədə belə təbrik yazmışdı:**

"Bu gün yazda çiçəkləyən ağacları hamilə qadın bilib, onlardan utanan, söyüdlərin sarı işığı ilə yuyunan, "Sənin xatirən yaşayan ürək heç vaxt boş qala bilməz" düşüncəsi ilə dağları gülümsədən adamın - ustad Əkrəm Əylislinin doğum günüdür. Doğum günün qutlu olsun, qardaş". "Yeni Müsavat"da dərc olunan açıqlamasında isə R.Behrudi əlavə edib ki, Əkrəm son yüzilliyin yetirdiyi ən böyük yazıçılardan biridir: "Sadəcə olaraq, düzgün anlaşılmayan bir sıra məqamlar oldu. Əkrəm həmişə axına qarşı gedən adam olub. Yəni hamının dediyini deyəcək şəxs olmayıb. Bu dəfə onun axının əksinə üzməsi düzgün anlaşılmadı, cəmiyyət və dövlət tərəfindən. Amma Əkrəm yenə də əvvəlki ucalığında dayanır. Bir ölkədə ki şair şairin, yazıçı yazıçının paxıllığını çəkir, ona şər-böhtan atır, o ölkədə nədən danışmaq olar? Əkrəmin əleyhinə danışan şair və yazıçıların hamısı onun paxıllığını çəkənlərdir. Onun yerində olmadıqlarına, yazdıqlarını yaza bilmədiklərinə görə onun paxıllığını çəkirlər. O hirs-hikkə hamısı oradan qaynaqlanır. Əllərinə də bəhanə düşdü və bu fürsətdən dərhal yararlandılar və buna da davam edirlər. Yaltaqlıq da burada əsas rol oynayan amillərdən oldu. Əkrəmi təhqir etmək, yüksəldiyi ucalıqdan endirmək istədilər. Ucalığa yüksələn adam bir çox hallarda orada dayana bilmir, amma Əkrəm belələrindən deyil". Və sonda əlavə edib ki, vaxt gələcək, Əkrəm Əylisliyə Bakıda heykəl qoyulacaq. (?!) Həm də "mütləq".

Mütləq ifadəsi isə bizcə, o qədər də yaxşı alınmayıb. Qəti qərar vermək düzgün deyil. Ola da bilər, olmaya da. Hazırkı situasiyadan baxanda heykəl məsələsinin baş tutacağı çətin görünür. Kim bilir. Bəlkə də...



# Demokratiya sadəcə bəhanədir

## ABŞ Çinin artan hərbi qüdrətindən narahatdır

**Uzun müddətdir davam edən ABŞ-Çin qarşıdurması son günlər yeni mərhələyə qədəm qoyub. Tərəflər ikili münasibətlərin korlanmasında qarşılıqlı olaraq bir-birilərini ittiham edirlər. Çin Xarici İşlər Nazirliyi bəyanat yayaraq bildirib ki, Amerikanın təbliğ etdiyi demokratiya modeli digər dövlətlərə təzyiq və daxili işlərinə qarışmaq üçün bəhanədir.**

> *Böyük dövlətlərin gərgin münasibətləri qarşılıqlı ittihamlardan o yana keçməyəcək*

Bəyanatda vurğulanıb ki, ABŞ "demokratiya nümunəsi" olmaqdan qürur duyur və bu bəhanə ilə digər ölkələrin daxili məsələlərinə müdaxilə edirlər. Demokratiya bayrağı altında müharibələr aparır və regional münaqişələrə, humanitar fəlakətlərə səbəb olurlar. Sənəddə qeyd olunub ki, Vaşinqtonun öz demokratik sistemini mükəmməl göstərmək cəhdlərinə baxmayaraq, əslində onun mənfi tərəfləri daha ciddi şəkildə üzə çıxır: "Ümid edirik ki, ABŞ öz sistemini təkmilləşdirəcək və xarici dünya ilə münasibətlərə yanaşmanı dəyişəcək". Ekspertlərin qənaətincə, Çin-ABŞ arasında mübarizənin əsas səbəbi iqtisadi dominantlıq uğrundadır. Problem isə ondadır ki, iki nəhəng iqtisadi gücün qarşıdurması sadəcə tərəflərə deyil, bütün dünyaya risk yaradır.

**Vəhdət Partiyasının sədr müavini, politoloq Vasif Əfəndiyev hesab edir ki, ABŞ-Çin münasibətlərinin gərgin olması səbəbini hər iki tərəf özünəməxsus qaydada təhlil edir. Partiya təmsilçisinin sözlərinə görə, Ağ Ev mütəmadi şəkildə Çin Xalq Respublikasını avtoritar ölkə olmaqla yanaşı, demokratiyanın boğulmasında və ideoloji münaqişənin qızışdırılmasında da suçlayır:** "Pekin isə Amerikanı ölkəsinin iqtisadi yüksəlişindən narahat olmaqda və buna mane olmağa çalışmaqda ittiham edir. Lakin əslində isə Vaşinqtonu narahat edən Çinin artmaqda olan hərbi qüdrətidir. Çinin yeni hərbi texnologiyalara can atması və nüvə dövləti olması ABŞ-ı ciddi təşvişə salır. Məhz bu səbəbdən Vaşinqton-Pekin əlaqələrinin qısa zamanda normallaşacağı istisna edilmir. Xatırladım ki, ötən ilin yanvar ayında Çin ABŞ-dan 200 milyard dollar həcmində məhsul alacağına söz versə də, sabiq prezident Donald Tramp qəflətən bu razılaşmaya ehtiyac olmadığını bəyan etdi. Razılaşma Amerika iqtisadiyyatı üçün kifayət qədər önəmli yatırım sayılsa da, Tramp bundan imtina etdi. İndiki Prezident Cozef Bayden hakimiyyətə gəldikdən sonra bu qərara yenidən baxacağını və Çinlə iqtisadi əlaqələrin inkişafında maraqlı olduğunu söylədi. Baydenin məsləhətçisi Cek Sallivan bu istiqamətdə işlərin getdiyini və iqtisadi münasibətlərin müəyyən edilməsi istiqamətində iş aparıldığını deyib. İlin sonunda Bayden və ÇXR-nın rəhbəri Si Tsinpin arasında virtual görüşün baş tutması planlaşdırılır".

**İsmayıl Qocayev**



# "Brüssel görüşündə ciddi qərarlar verilməyəcək"

## Əhəd Məmmədli: "Çünki bu məsələnin əsas tərəfləri Azərbaycan, Ermənistan, Rusiya və Türkiyədir"

**Xəbər verdiyimiz kimi, Azərbaycan və Ermənistan liderləri İlham Əliyev və Nikol Paşinyanın dekabrın 15-də Şərq Tərəfdaşlığı sammitinin keçiriləcəyi Brüsseldə görüşü baş tutacaq. Bu barədə Avropa Şurasının prezidenti Şarl Mişel "Twitter" səhifəsində yazıb. O bildirib ki, insidentlərin qarşısının alınması üçün Ermənistan və Azərbaycan müdafiə nazirləri səviyyəsində birbaşa təmas yaratmaq barədə razılıq əldə olunub.**

Görüşün gündəliyində hansı məsələlərin olacağı barədə ətraflı məlumat verilmir. Lakin gündəliyin əsas məsələsinin sərhədlərin müəyyənləşdirilməsi və Zəngəzur dəhlizinin açılması olduğu iddia edilir. Qeyd edək ki, ötən şənbə 10 nəfər erməni əsilli hərbi qulluqçu qaytarıldı və əvəzində Azərbaycan mina xəritələrini əldə etdi. Bu prosesin görüş öncəsi baş verməsi də təsadüf hesab olunmur. Və sual hasil olunur:

- Məlum prosesin Brüssel görüşünə təsirləri nədən ibarət olacaq?

**Mövzunu "Şərq"ə dəyərləndirən AĞ Partiya sədrinin müavini, politoloq Əhəd Məmmədli bildirib ki, bunu Brüssel görüşü öncəsi Azərbaycan tərəfindən müsbət addım kimi qiymətləndirmək olar:**

"Ümid edirəm ki, qarşı tərəfin təqdim etdiyi xəritələr dəqiq olacaq. Sözügedən addımın Brüssel görüşünə təsirinə gəlincə, hesab edirəm ki, danışıqlar zamanı ciddi qərar verilməyəcək. Çünki bu məsələnin əsas tərəfləri Azərbaycan, Ermənistan, Rusiya və Türkiyədir. Qərbin bu prosesə hər hansısa bir ciddi müdaxilə etmə imkanı olduğunu düşünmürəm".

> *"Qərbin bu prosesə hər hansısa bir ciddi müdaxilə etmə imkanı olduğunu düşünmürəm"*

Politoloq Qərbin prosesə öz təsirlərini qoruyub saxlamaq və ATƏT-in Minsk qrupunu işə salmaq istədiyini vurğulayıb:

"Bu da bizim yox, rəsmi İrəvanın, eyni zamanda, rəsmi Moskvanın hansısa maraqlarına cavab verir. Azərbaycan tərəfin Brüssel görüşündə hər hansısa güzəşt edəcəyinə inanmıram. Yəqin ki, Soçi görüşündə olduğu kimi bəyanat veriləcək".

**Ə.Məmmədli bu cür görüşlərdə əsas məsələlərin bağlı qapılar arxasında müzakirə olunduğunu diqqətə çatdırıb:**

"Görüşdən sonra biz bu proseslərin hansı yöndə davam edəcəyini görəcəyik".

**Günəş Mərd**

# Separatçılar təlaş içindədir, Azərbaycan çevik hərbi hissələr açır"

## "Bu, o deməkdir ki, hərb variantı aktuallıq qazanarsa, Azərbaycanın keçirəcəyi əməliyyatlar operativ olacaq"

**Rusiya sülhməramlılarının müvəqqəti məsuliyyət zonasında güllə yarası alaraq ölən erməni döyüşçü Qor Martirosyan barədə əlavə informasiya yayılıb. Martirosyanla bağlı hadisə baş verənə qədər o, üçüncü şəxs vasitəsilə Azərbaycan tərəfi ilə əlaqə saxlamağa çalışaraq Azərbaycanın hüquq-mühafizə orqanlarına təslim olmaq niyyətində olub.**



*"Separatçıların hazırda yeganə ümid yeri sülhməramlılardır, Moskva isə bölgədən əlini çəkmək istəmir"*

Buna səbəb isə xidmət "yoldaşları" tərəfindən alçaldılması olub. Görünür, onun niyyətindən separatçıların xəbəri olub, çünki zəng açıq əlaqə vasitəsilə həyata keçirilib. Ötən gün təxminən saat 21:20 radələrində avtomat səsləri eşidilib, bundan sonra hadisə yerinə Rusiya sülhməramlıları və təcili tibbi yardım maşınları gedib.

Separatçı cinayətkar rejimin fikrincə, bu cür nümayişkaranə edamlar düşmənçilik ideologiyasından imtina etmək istəyən hər kəs üçün dərs olmalıdır. Təslim olmağa və ya Azərbaycan vətəndaşlığını qəbul etməyə çalışan hər kəs ya zərərsizləşdiriləcək, ya da İzaura Balasanyan və dörd övladı ilə bağlı vəziyyətdə olduğu kimi "MTX-ya veriləcək" (Milli Təhlükəsizlik xidməti). Baş vermiş hadisə göstərir ki, separatçılar arasında xaotik durum formalaşıb. Azərbaycan, Rusiya və Ermənistan arasında izmalanmış 10 Noyabr bəyanatına əsasən Rusiya sülhməramlıları separatçıları bölgəni tərk etməyə məcbur etməli idi. Amma razılaşmanın bu bəndi icra edilmir.

**Məsələni "Şərq"ə şərh edən analitik Aqşin Kərimov bildirib ki, bağlı qapılar arxasında aparılan müzakirələr hələ ki, dəqiq fayda verməyib.**

"Rusiya sülhməramlıları kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində qalan erməni separatçıların ovqatı təlxdir. Çünki Azərbaycan sülhməramlıların məsuliyyət zonasına asan hərbi çıxışı təmin edən hərbi hissələr istifadəyə verib.

Bu, o deməkdir ki, hərb variantı aktuallıq qazanarsa, Azərbaycanın keçirəcəyi əməliyyatlar çevik və operativ olacaq. Digər tərəfdən Bakı psixoloji təzyiq mexanizmini də işə salır, bu da separatçılar arasındakı əhvalı daha da ağırlaşdırr. Separatçıların hazırda yeganə ümid yeri sülhməramlılardır. Hələlik isə sülhməramlıların müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərindən çıxması barədə aydın təsəvvürlərin olmaması onu deməyə əsas verir ki, Moskva bölgədən əlini çəkmək istəmir.

**A.Kərimov qeyd edib ki, Bakı sülhməramlılardan bəzən narazılıqlar ifadə etsə də, ümumi tabloda məmnunluğunu dilə gətirir:**

"Sülhməramlıların dislokasiyası üçün müddət 5 ildir, onun da bir ili geridə qalıb. Azərbaycan sülhməramlıların çıxmasını təmin etməyə çalışır. Bu onun göstəricisidir ki, ancaq bunu nə Rusiya, nə Türkiyə, nə də Azərbaycan ictimailəşdirir. Yerdə qalan 4 illik periodda Bakı-Ankara trafiki Qərbi aktiv proses iştirakçısı etməyə çalışacaq ki, Rusiya ordusu Azərbaycandan çıxsın. Türkiyədən hələlik sülhməramlıların məsuliyyət coğrafiyasına aid konkret mövqe görmürük. Moskva isə israrının dayanıqlı olmasını nümayiş etdirəcək. Cari vəziyyətə gəlincə, Azərbaycan və Ermənistan sülhməramlıların fəaliyyətindən məmnunluğunu dilə gətirib. Bəs buradakı fərqlər nədir?

Azərbaycan sülhməramlıların iştirakını mütləq sülh yolunda element kimi nəzərdən keçirir. Ermənistan isə bu amili revanşizmin alovlanması üçün mənbə hesab edir. Qarşıdan gələn 4 il müddətində sülhməramlıların çıxışının təmin olunub-olunmayacağını indiki gedişatlar fonunda müəyyənləşdirmək çətindir.

Rusiya müddətin uzadılmasına çalışır. Sülhməramlılar çıxarsa, həmin ərazilərdə rus icması şəklində "özəklər" saxlamaq istəyir".

**Xanlar Əlibəy**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

İsmayıl Qocayev

# Qarabağ ən çox inkişaf etmiş iqtisadi region halına gətirilir

## Gələn ildən işğaldan azad olunmuş ərazilərdə yaşayıb-işləyəcək şəxslərə vergi güzəştləri olacaq

**Məlum olduğu kimi dövlət başçısı İlham Əliyev Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Prezidentin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, Emin Hüseynov Şuşa istisna olmaqla işğaldan azad edilmiş ərazilərdə Prezidentin xüsusi nümayəndəsi təyin edilib.**

Ekspertlərin fikrincə, bu təyinatdan sonra Qarabağın iqtisadi quruculuğu istiqamətində daha operativ və effektli addımlar atılacaq. Məqsəd ölkəmiz üçün böyük əhəmiyyət kəsb edən Qarabağ bölgəsini iqtisadi baxımdan ən qısa zamanda dirçəltməkdir. Qarabağ iqtisadi rayonunun mövcud potensialı, xammal və təbii ehtiyatlar, məhsuldar torpaq sahələrinin həcmini nəzərə alsaq, bərpa mərhələsindən sonra qısa zamanda həmin ərazilərimizdə məhsul istehsalının artacağı proqnozlaşdırılır. Bu o deməkdir ki, çox qısa zamanda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa-yenidənqurma, yeni iş yerlərinin yaradılmasını və güclü iqtisadi inkişafı müşahidə edəcəyik. Qarabağ iqtisadi rayonunun həm sənaye, həm turizm, həm də aqrar sektorda böyük potensialı var. Şərqi Zəngəzur da həm aqrar sahədə, həm də təbii ehtiyatlar baxımından kifayət qədər böyük potensiala malik iqtisadi rayondur. İşğaldan azad olunmuş ərazilərimizdə, bütövlükdə Qarabağda yenidənqurma prosesinin daha sürətli şəkildə həyata keçirilməsi sistemli və dövlət proqramları çərçivəsində yanaşmanın həyata keçirilməsinə imkan verəcək.

Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov "İşğaldan azad olunmuş ərazilərin innovativ inkişaf imkanları" mövzusunda keçirilən konfrans zamanı deyib ki, Qarabağda yeni iqtisadi quruculuq təmin edilməlidir: "Yeni, ən qabaqcıl texnologiyaları orada istifadə etməliyik. Qarabağda yeni iqtisadiyyat quruculuğunu təmin etməliyik. Qarşımızda duran əsas vəzifə budur".

**İqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov da bildirib ki, innovativ iqtisadi inkişafı təmin etmək üçün geniş imkanları olan sahələrdən biri də Sənaye Parklarının yaradılmasıdır. Onun sözlərinə görə, Ağdam Sənaye Parkına investorların cəlbi üçün 4 müəssisə ilə danışıqlar başa çatmaq üzrədir. S.Ələkbərov bildirib ki, 30 il öz doğma torpaqlarını görmək arzusu ilə yaşayan insanların yurd-yuvalarına qaytarılması üçün ciddi işlər aparılır:** "Lakin təbiidir ki, bu istiqamətdə görüləsi işlərimiz daha çoxdur və hər birimiz elə etməliyik ki, bütün sahələrdə innovativliyi təmin etməklə həyata keçirdiyimiz işlərin səmərəliliyini artıraq, daha yüksək nəticələrə nail olaq. Azad olunmuş ərazilərdəki sənaye parklarında yalnız innovativ texnologiyalara əsaslanan sənaye sahələri fəaliyyət göstərəcək. Məlum olduğu kimi Prezidentin 2021-ci il 4 oktyabr tarixli Fərmanı ilə Cəbrayıl rayonu ərazisində daha bir park - "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı yaradılıb. Şərqi Zəngəzur iqtisadi rayonunun Arazboyu ərazisinin əsasən düzənlik relyefə və həmin bölgənin cənub istiqamətində giriş qapısı mövqeyinə malik olması bu sənaye parkının yaradılması üçün əlverişli şəraiti təmin edir. Cəbrayıl rayonunda logistika mərkəzinin, müxtəlif xidmət və innovativ sənaye sahələrinin, o cümlədən tikinti materialları istehsalı müəssisələrinin yaradılması işğaldan azad edilmiş digər rayonların da bərpasında faydalı olacaq".

*Sahib Ələkbərov bildirib ki, bu ərazilərdə logistika və ticarət fəaliyyətinin həyata keçirilməsi, sənaye istehsalının dəstəklənməsi əhalinin dayanıqlı məşğulluğunun təmin edilməsi üçün də yeni imkanlar yaradacaq:* "Bu Parkda artıq "KamAZ" ASC ilə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin birgə servis mərkəzinin təməli qoyulub. Regional servis mərkəzində "KamAZ" ilə yanaşı, digər yük avtomobilləri, eləcə də kənd təsərrüfatı texnikalarına, o cümlədən traktor və kombaynlara texniki servis xidməti göstəriləcək. Gələcəkdə Sənaye Parkında logistika və anbar kompleksləri, TİR parkı, topdan və pərakəndə satış obyektləri, müxtəlif istehsal və xidmət müəssisələrinin də yaradılması nəzərdə tutulur. Sahibkarlara böyük güzəştlər, o cümlədən vergi güzəştlərinin verilməsi də gündəmdədir". Əlavə olaraq qeyd olunub ki, gələn ildən başlayaraq, işğaldan azad olunmuş ərazilərdə yaşayıb-işləyəcək Vətən müharibəsi iştirakçılarına, şəhid ailəsi və əlil statusu almış şəxslərə bir sıra vergi güzəştləri veriləcək. Nazir müavini bəyan edib ki, işğaldan azad olunmuş ərazilərin iqtisadiyyatında kənd təsərrüfatı məhsullarının istehsalı kifayət qədər böyük çəkiyə malikdir. Hazırda kənd təsərrüfatı məhsullarının istehsalı torpaq vergisi istisna olunmaqla bütün vergilərdən azaddır: "2022-ci il yanvar ayının 1-dən 3 il müddətinə kənd təsərrüfatı məhsullarının topdan və pərakəndə satışı zamanı ƏDV-nin ticarət əlavəsindən hesablanması, habelə kənd təsərrüfatı texnikalarının operativ lizinqə verilməsi və kənd təsərrüfatı məhsullarının istehsalı ilə bağlı aqrotexniki xidmətlər ƏDV-dən azad ediləcək". Nazir müavini əlavə edib ki, işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərəcək sahibkarlıq subyektlərinə vergi güzəştləri və tətillərinin, habelə sosial sığorta üzrə güzəştlərin verilməsi ilə bağlı təkliflər hazırlanır.



### *Pərviz Heydərov: "Ən inkişaf etmiş ölkələr belə bu qədər kiçik zamanda Azərbaycanın gördüyü işləri başa çatdıra bilməzdi. Bütün bu addımlar bölgəyə xarici investorların marağını cəlb etmək və onların regiona vəsait yatırmasına nail olmaq üçün atılır"*

**İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən iqtisadi quruculuq işləri ilə bağlı "Şərq"ə danışan iqtisadçı Pərviz Heydərov deyib ki, keçən ilin dekabr ayından etibarən Qarabağda yenidənqurma və bərpa işlərinə başlanılıb. Bu ilin əvvəlindən isə görülən işlər planlı və dövlət büdcəsindən ayrılan 2,2 milyard manat vəsait hesabına həyata keçirilir. Ekspertə görə, konkret strateji xətt üzrə görülən tədbirlər nəticəsində çox qısa müddət ərzində kifayət qədər böyük işlərə imza atılıb:** "Sürətli yol çəkilişləri, elektrik stansiyalarının quraşdırılıb istifadəyə verilməsi, 8 ay ərzində Füzuli Beynəlxalq Hava Limanının inşasının başa çatdırılması və s. işləri görmək üçün əslində illər lazım idi. Əmin olun ki, ən inkişaf etmiş ölkələr belə bu qədər kiçik zamanda Azərbaycanın gördüyü işləri başa çatdıra bilməzdi. Özü də bir məqamı nəzərə alaq ki, Qarabağda quruculuq işləri, iqtisadi layihələr ən müasir texnologiyaların cəlb olunması yolu ilə həyata keçirilir. Bütün bu addımlar bölgəyə xarici investorların marağını cəlb etmək və onların regiona vəsait yatırmasına nail olmaq üçün atılır. Məqsəd Qarabağ bölgəsini ən çox inkişaf etmiş iqtisadi region halına gətirməkdir və bu, çox mühüm hədəfdir. Hesab edirəm ki, 2022-ci ilin sonuna, yaxud 2023-cü ilin ortalarına kimi nəqliyyat-kommunikasiya və digər zəruri layihələrin təxminən 90 faizi yekunlaşmış olacaq. Görülən işlərin gedişatı, dövlətin həssaslığı, sərf etdiyi maliyyə vəsaitləri bunu qətiyyətlə söyləməyə əsas verir".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# "Vasileva əsl peşəkardır"

## Nazir son günlərin qalmaqallı təyinatlarına izahat verməkməcburiyyətində qaldı






**Gənclər və idman naziri Fərid Qayıbov bədii gimnastika üzrə Azərbaycan yığmasının sabiq baş məşqçisi Mariana Vasilevanın müavin təyin olunmasının səbəbini açıqlayıb.**

Fərid Qayıbov bu barədə Azərbaycan Gənclər və İdman Nazirliyinin rəsmi saytındakı məqaləsində yazıb.

**O, bildirib ki, Vasileva əsl peşəkardır:** "Noyabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamları ilə gənclər və idman nazirinə iki müavin təyin edilib. İdman sahəsi üzrə müavin Mariana Vasileva yüksək təcrübəyə malik, peşəkar, nizamlı, məsuliyyətli və nəticəyə köklənmiş mütəxəssisdir".

Bir müddət əvvəl (sentyabr, 2021) elə Fərid Qayıbov tərəfindən işindəki nöqsanlara görə, Gənclər və İdman Nazirliyinin gənclərlə iş şöbəsinin müdiri vəzifəsindən azad edilmiş İndira Hacıyevanın müavin təyinatını isə nazir belə əsaslandırıb:

"İndira Hacıyeva gənclər siyasəti sahəsində böyük yol keçmiş və nazirlikdə çalışan peşəkar kadrdır".

**F.Qayıbov nazirliyin yaxın illər üçün strategiyasının hazırlandığını xatırladıb:** "Bu məqsədlə geniş sosioloji tədqiqatın aparılması planlaşdırılır: "Nazirlikdə və tabe qurumlarda çalışan mütəxəssilərin bilik və bacarıqlarının artırılması, idarəetmənin təkmilləşdirilməsi məqsədilə çoxkomponentli layihənin həyata keçirilməsini nəzərdə tuturuq".

**Nazir qarşıya qoyulan hədəflərdən də söz açıb:** "Məqsədimiz gənclər və idmanla bağlı bütün səviyyələrdə standartlarımızı və potensialımızı artırmaq, gənclərin inkişafını təmin edən yeni alətləri yaratmaqdır. Əminəm ki, "gənclərlə və gənclər üçün", birlikdə və sistemli çalışaraq, qalib xalqın uğurlu gəncliyini görəcəyik".

# Ərəb mətbuatı yazdı

## "Azərbaycan Qarabağda məscidləri bərpa edir"

**Ərəb ölkələrinin nüfuzlu mətbuat orqanlarında Qarabağın dirçəldilməsilə bağlı məqalə dərc olunub. "Azərbaycan Qarabağı dünyanın ən inkişaf etmiş bölgəsinə çevirir" başlıqlı məqalənin müəllifi Milli Məclisin deputatı Könül Nurullayevadır.**

Millət vəkili qeyd edib ki, ötən il 44 günlük Vətən müharibəsində Azərbaycan özü BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamənin icrasını təmin etdi.

İndi Azərbaycan yerlə-yeksan edilən Qarabağı və Şərqi Zəngəzuru yenidən dirçəldir:

"Ərazilərin azad olunmasından dərhal sonra genişmiqyaslı yenidənqurma işlərinə başlanıb və artıq ilkin nəticələr var.

Azərbaycan öz maliyyə resursları ilə yeni şəhər və kəndlər salır. Yeni məscidlər inşa olunur, Qarabağdan yenidən azan səsi gəlir.


أذربيجان تحول قراباغ إلى أكثر المناطق تطوراً في العالم بقلم :كونول نوراللهييفا

2 ديسمبر، 2021 أخبار العالم، المحيط العربي

شكلت حرب قراباغ الثانية 2020، واقعاً جديداً في منطقة القوقاز قاطبة، فقد بدأت المنطقة تنتهج مساراً جديداً نتيجة التغيرات والتحولات التي أوجدتها على الأرض تلك الحرب التي استمرت 44 يوماً، وما صاحبها

Məqalədə həmçinin qısa müddətdə inşa olunan unikal və beynəlxalq əhəmiyyətli infrastruktur layihələrə də toxunulub: "Cəmi 8 aya inşa olunan Füzuli Beynəlxalq Hava Limanı da bu bölgənin əsas nəqliyyat infrastrukturlarından biridir. Azərbaycan bu limanı inşa etməklə Qarabağın hava qapısını açmış oldu.

Mürəkkəb relyef şəraitinə baxmayaraq, Azərbaycan Qarabağda daha iki hava limanı inşa etməkdədir. Məsələ burasındadır ki, bu ərazilərdə heç vaxt hava limanı olmayıb, Azərbaycan bununla ilkə imza atır.

İlklərdən biri də "smart city" təcrübəsinin işğaldan azad olunan Zəngilan rayonunda tətbiqi bu bölgəyə 30 ildən sonra geri qayıdan sadə vətəndaşların rifahını ən yüksək səviyyədə təmin etməyə hesablanıb. 30 ilə yaxın müddətdə boz zona kimi qalan Qarabağ və Şərqi Zəngəzur bölgəsi indi xarici investorlar üçün cəlbedici məkana çevrilib. Dünyanın müxtəlif ölkələrini təmsil edən xarici şirkətlər bərpa prosesində fəal iştirak edərək, təbii resurslarla zəngin Qarabağın və Şərqi Zəngəzurun inkişafına töhfə verir".

Beləliklə, 30 ilə yaxın erməni işğalı altında qalan Qarabağ və Şərqi Zəngəzur bölgəsi nəhayət azaddır və bu bölgədə yeni inkişaf dövrü başlayıb.

Yəni faktiki bölgədə dayanıqlı sülh, inteqrasiya və əməkdaşlıq üçün tarixi şans yaranıb.

K.Nurullayeva qeyd edib ki, işğal dövründə Azərbaycana məxsus Qarabağda bütün şəhər və kəndlər, o cümlədən mədəni və dini irs abidələri yerlə-yeksan edilib.

Bütün müsəlmanlara qarşı təhqir və nifrət zəminində məscidlər dağıdılıb, təhqir edilib, o cümlədən onlardan donuz və inək tövləsi kimi istifadə olunub.

*Qeyd edək ki, K.Nurullayevanın müəllifi olduğu məqalə Əlcəzair, Misir, İraq, Yəmən və Sudanın bir neçə nüfuzlu kütləvi informasiya vasitələrində dərc olunub.*

**Aygün**

# Gün ərzində Azərbaycanda 50-60 zəlzələ qeydə alınır

## Yaxın müddətdə Azərbaycanda dağıdıcı zəlzələ ehtimalı yoxdur"



**Gün ərzində Azərbaycanda 50-60 zəlzələ qeydə alınır.**

Bunu Trend-ə açıqlamasında AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru, AMEA-nın müxbir üzvü, professor Qurban Yetirmişli deyib.

"Lakin bu zəlzələlər çox aşağı ballı olduğu üçün hiss olunmur və heç bir təsiri də yoxdur" - deyə, o bildirib.

**Baş seysmoloq zəlzələlərlə bağlı öncədən proqnozların verilməsi məsələsinə də aydınlıq gətirib.**

"Zəlzələ ilə bağlı qısamüddətli proqnozun verilməsi məsələsi yüz illərdir ki, həllini tapa bilmir. Bunun üçün cihaz yoxdur. Xüsusən də güclü zəlzələlərin dəqiq yeri və vaxtı üçün qısamüddətli proqnoz vermək mümkün deyil. Lakin ortamüddətli və uzunmüddətli proqnozlar verilə, harda aktivliklərin olduğunu və zəlzələ gözlənildiyini demək mümkündür. Yaxın müddətdə Azərbaycanda dağıdıcı zəlzələ ehtimalı yoxdur" - deyə, Q.Yetirmişli qeyd edib.

# Pakistanda hərbi helikopter qəzaya uğrayıb, ölənlər var



**Pakistanın şimalında Siyaçin dağlıq bölgəsində hərbi helikopter qəzaya uğrayıb.**

Trend-in məlumatına görə, hadisə nəticəsində iki nəfər həlak olub. Ölənlərin mayor rütbəsi daşıdığı məlum olub.

Hadisə yerinə axtarış-xilasetmə qrupları və hərbçilər cəlb olunub.

Siyaçin buzlaqları Qaraqorum dağlarında Pakistan, Çin və Hindistan sərhədində yerləşir.

Bölgədə uzun müddət Pakistan və Hindistan arasında münaqişələr qeydə alınıb. Bununla əlaqədar Siyaçin dünyanın ən hündür münaqişə bölgəsi kimi tanınıb.

# Avtomobillərlə bağlı qayda məntiqli deyil

## Ancaq bir çox ölkələrdə spirtli içkilərin, tütün məmulatlarının ƏDV-ləri geri qaytarılmır




**."ƏDV geri al"da növbəti aydan dəyişilik olacaq. Yanvar ayından etibarən avtomobillər, alkoqollu içkilər və tütün məmulatları alan zaman ödənilən Əlavə Dəyər Vergisi (ƏDV) geri qaytarılmayacaq.**

Bu barədə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Vüqar Bayramov bildirib. O, əlavə edib ki, əvvəllər yalnız bu istisna neft və qaz məhsullarına tətbiq olunurdu:

"ƏDV-ni geri al" kampaniyası çərçivəsində gələn aydan tətbiq ediləcək dəyişikliklərdəki müraciətlərlə bağlı qeyd etmək istərdik ki, "Vergi Məcəlləsi"nin 165-ci "Verginin sıfır (0) dərəcəsi ilə tutulması" maddəsinə bir sıra dəyişikliklər edilib. Artıq bu dəyişikliklər keçən cümə günü Milli Məclis tərəfindən təsdiq olunub. Bununla yanaşı, habelə tibb müəssisələri tərəfindən göstərilən tibbi xidmətlərə görə ödənilən ƏDV-nin də bir hissəsi gələn ildən etibarən geri qaytarılacaq.

Digər dəyişiklik yaşayış və qeyri-yaşayış sahələrinin alınması ilə bağlıdır. Yeni dəyişikliyə əsasən, fiziki şəxs olan istehlakçılar eyni binadan bir və ya bir neçə yaşayış və (və ya) qeyri-yaşayış sahələrini aldıqda, ƏDV-nin qaytarılması alınmış yaşayış sahəsinin 500 kvadratmetr və qeyri-yaşayış sahəsinin 500 kvadratmetrdən çox olmayan hissəsinə mütənasib ödənilmiş ƏDV-yə tətbiq edilir.

***"Nağd ödənişlərə ƏDV-nin geri qaytarılması ümumiyyətlə ləğv edilməlidir. Amma kartla ödənişlərdə ƏDV-nin geri qaytarılması faizi ən azı iki dəfə artırılmalıdır"***

Qeyd edək ki, qaytarılan məbləğ nağdsız qaydada ödənilmiş ƏDV-nin 15 faizini, nağd qaydada ödənilmiş ƏDV-nin 10 faizini təşkil edir.

Dəyişikliklər Azərbaycan Prezidenti tərəfindən təsdiq olunduqdan sonra gələn aydan qüvvəyə minəcək".

**"ƏDV"lərin artırılması barədə "Şərq"ə danışan iqtisadçı-ekspert Natiq Cəfərli bildirib ki, əslində bir çox ölkələrdə bənzər dəyişikliklər var:**

"Spirtli içkilərin, tütün məmulatlarının ƏDV-ləri geri qaytarılmır. Bu da məhz sağlam həyat tərzinin təşviqinə doğru atılan addım kimi dəyərləndirilir. Avtomobillərlə bağlı bu qaydanın təyin olunması o qədər də məntiqli deyil. Avtomobil də digər əşyalar kimi insanların gündəlik tələbatını ödəmək üçün kifayət qədər geniş yayılmış bir vasitədir. Alqı-satqının ƏDV-dən azad edilməsinin mənası yoxdur".

**İqtisadçı həmçinin əlavə edib ki, ümumiyyətlə, Azərbaycanda ƏDV-lərin geri qaytarılması ideya olaraq müsbətdir:**

"Çünki ticarət işinin, kölgə iqtisadiyyatının ağardılması, ticarət dövriyyəsinin şəffaf şəkildə aparılması üçün təşviqi addımlarındandır. Lakin uyğulamada bəzi problemlər var. Onlardan biri bu addımın məntiqi qeyri-nağd ödənişləri həvəsləndirmək və nağd dövriyyəni azaltmaq üçün nəzərdə tutulub. Amma ƏDV-lərin geri qaytarılması nağd ödənişlər üçün də müəyyənləşdirilib. Yəni nağd ödənişlər üçün 10 faiz, kartla, nağdsız ödənişlər üçün isə 15 faiz təşkil edir. Fikrimcə, burada da ciddi yanlışlıqlar var. Nağd ödənişlərə ƏDV-nin geri qaytarılması ümumiyyətlə ləğv edilməlidir. Amma kartla ödənişlərdə ƏDV-nin geri qaytarılması faizi ən azı iki dəfə artırılmalıdır. 15 faizdən 30-a qaldırılmalıdır. Bu zaman vətəndaşların özlərində maraq yaranacaq ki, alış-verişləri onlayn qaydada həyata keçirsinlər. ƏDV-nin bir hissəsini geri qaytarmaqla kifayət qədər ciddi stimul olacaq. Çünki ƏDV-lərin 30 faizi geri qaytarılacaqsa, bu, nəzərə çarpacaq bir maddi dəstək ola bilər".

**Sücayət Mehti**



# Soyuq daşın, skamyanın üzərində oturmaq olmaz

## Qadınlarda yumurtalıqların iltihabı, sistit, kişilərdə isə prostatitin inkişafının riski yüksəlir

**Uşaqlıqdan biz eşidirik ki, soyuq daşın, skamyanın və s. üzərində oturmaq olmaz, bu iltihabla nəticələnə bilər.**

Bu nə dərəcədə düzdür? Həkimlərin fikirinə görə, bu həqiqətən belədir. Soyuq yerdə oturduqdan sonra qadınlarda yumurtalıqların iltihabı, sistit, kişilərdə isə prostatitin inkişafının riski yüksəlir. Yumurtalıqların iltihabı isə sonsuzluğun inkişafına yol aça bilər.

Bundan əlavə soyuq səthlərdə müəyyən müddət ərzində oturduqdan sonra insanda radikulit inkişaf edə bilər və ya bu xəstəlik artıq varsa - kəskinləşə bilər.(sağlamolun.az)

Soyuq səthdə oturmaq babasilin inkişafına da səbəb ola bilər. Babasili olan insan özünü daim soyuqlamadan qorumalıdır.

Kəskin yerli soyuqlama çanaqda qan dövranının pozulmasına səbəb olur. Bu isə öz növbəsində müxtəlif iltihablara yol açır.

Soyuq səthlərdə oturmaq uşaqlar üçün xüsusilə təhlükəlidir. Buna heç zaman yol verməyin! Soyuq fəsillərdə uşağa soyuq daşın, skamyanın üzərində oturmağa icazə verməyin.

# "Dua edən dillərinizə qurban olaram..."

## Fulya Öztürk ikinci dəfə yoluxduğu koronadan sağalır




**Türkiyəli jurnalist və aparıcı Fulya Öztürk səhhətinin yaxşılaşmağa doğru getdiyini açıqlayıb.**

Bu barədə Fulya instaqramda məlumat yayıb. Koronavirusa yoluxduqdan sonra halı pisləşən və ağır vəziyyətdə xəstəxanaya yerləşdirilən aparıcı oradan foto paylaşıb.

"Çox halsızam, amma bu gün daha yaxşıyam, minlərlə mesaj, yüzlərlə zəng gəldi. Allah hamınızdan razı olsun, həqiqətən çox duyğulandım, çox ağladım. Dua edən dillərinizə qurban olaram", - aparıcı qeyd edib.

F.Öztürk bildirib ki, nəfəsini toplayıb "Fox TV"yə canlı müsahibə verəcək.

*Xatırladaq ki, "Fulya ile umudun olsun" proqramının ötən həftəki buraxılışında o, efirə çıxa bilməyib. Verilişi Esra Ezmeci aparıb.*

# Münasibətlərinə son qoyublar

## Dua Lipa ilə Anvar Hadid ayrıldı



**Məşhur müğənni Dua Lipa ilə sevgilisi, Gigi və Bella Hadidin qardaşları Anvar Hadid münasibətlərinə son qoyub.**

Axşam.az xəbər verir ki, cütlüyün karyeralarına daha çox vaxt ayırması səbəbindən bir müddətdir görüşmədiyi bildirilib. İddialara görə, ikili son 1,5 aydır ayrı yaşayır. Cütlüyə yaxın olan mənbə şayiələri təsdiqləyib.

Dua Lipanın hazırda London və Los-Ancelesdə albom buraxdığı, Hadidin isə Nyu-Yorkda qaldığı deyilir.

Dua Lipa və Anvar Hadid mövzu ilə bağlı açıqlama verməyib. Lakin, Hadid instaqram hesabında "Mənə yol göstərən və özümlə xoşbəxt olmağı öyrədən yaxınlarıma minnətdaram" sözlərini qeyd edib.

# Kovidə yoluxmuş 7 aylıq üçəmlər xilas edildi



**Yekaterinburq həkimləri koronavirusa yoluxaraq ağırlaşmış üçəmləri müalicə edib.**

Medicina.az xəbər verir ki, bu barədə region üzrə səhiyyə rəsmisi bildirib.

40 saylı kovid xəstəxanasında üçəm qızlar anaları ilə birgə müalicə olunublar.

Həkimlərin sözünə görə, ilk dəfə idi ki, üçəmlərdə kovid müalicə edirdilər. Pandemiya dövründə bu ilk dəfə idi.

# Dəhşətli kadrlar yayıldı

## On iki nəfərin alçaldıcı videosunu çəkən dəstə saxlanıldı





**Noyabrın 26-da Bakıda ali təhsil alan xarici ölkələrdən birinin vətəndaşı polisə müraciət edərək bildirib ki, sosial şəbəkələrdə tanış olduğu bir nəfər onu Yasamal rayonunda yerləşən "Qanlıgöl" adlanan əraziyə çağırıb.**

Daxili İşlər Nazirliyindən (DİN) "Şərq"ə verilən məlumata görə, orada olan yarımtikilidə tanımadığı dörd nəfər ona qarşı fiziki zor tətbiq etməklə bir ədəd dəyəri 1 500 manat olan mobil telefonunu və 100 manat pulunu ələ keçiriblər.

Həmin şəxslər daha sonra zərərçəkənin şəxsiyyətini alçaldan hərəkətlər edərək onu mobil telefon vasitəsi ilə lentə alıb polisə bu barədə şikayət edəcəyi təqdirdə həmin görüntüləri sosial şəbəkələrdə yayacaqları ilə hədələyiblər. Yasamal Rayon Polis İdarəsi və 28-ci Polis Bölməsinin əməkdaşlarının həyata keçirdikləri təxirəsalınmaz əməliyyat nəticəsində hadisəni törətməkdə şübhəli bilinən dəstənin rəhbəri Sadiq Ovçiyev, Ağababa Musayev, Elnur Vəliyev, Nihat Rəhimli, Sübhan Xanlarov və Aqşin Məmmədov saxlanılaraq istintaqa təqdim ediliblər.

Araşdırma zamanı müəyyən edilib ki, bu şəxslər eyni üsulla, yəni sosial şəbəkələrdə tanış olub görüşmək adı altında müxtəlif vaxtlarda daha 12 nəfəri "Qanlıgöl" adlanan əraziyə çağırıb onlara qarşı da quldurluq ediblər. Dəstə üzvləri həmin zərərçəkənlərin də şəxsiyyətlərini alçaldan hərəkətlər edərək mobil telefon vasitəsi ilə çəkiblər. Onların mobil telefonlarına baxış zamanı müxtəlif şəxslərə qarşı etdikləri hərəkətlər və hədə-qorxu videoları aşkar edilərək götürülüb.

*Qeyd olunan faktlarla bağlı Yasamal Rayon Polis İdarəsinin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb. Dəstə üzvləri barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Bu şəxslərin əməllərindən zərərçəkən və hələ də polisə şikayət etməyən vətəndaşlar varsa, bu barədə Yasamal Rayon Polis İdarəsinə, ərazi üzrə polis orqanlarına, həmçinin "102" Xidməti-Zəng Mərkəzinə və nazirliyin sosial şəbəkələrdəki rəsmi hesablarına məlumat verə bilərlər.*

**Günəş**

# Eynəkdən istifadə edən uşaqların sayı artıb

## Paşa Qəlbinur: "Hamısı pandemiya ilə bağlıdır, uşaqların 30-35 faizində görmə zəifliyi yaranıb"



**Jurnalist Elnurə Abuşova feysbuk hesabında orta məktəb şagirdləri arasında eynəkdən istifadə hallarının artmasına diqqət çəkib. O bildirib:**

"Qızım sinifdə uşaqlarla şəkillər çəkdirib. Baxıram, 5-6 nəfərdən başqa hamısı eynəklidir. Onların da 3-ü gözünü qıyıb baxır, yoxlatdırsalar, yəqin onlara da lazım olacaq. İbtidai sinifdə isə heç biri eynək taxmırdı. Bunun sonu hara gedir? Uşaqlar niyə bu günə düşdü? Məktəblərin qapısında durmaq bəs edir ki, şagirdlərin az qala 80 faizinin eynək taxdığını görəsən. Əgər buna səbəb kompüterdirsə, mən 1999-cu ildən günün az qala 10, 12 saatı kompüter qarşısındayam. Mən niyə eynək taxmıram? Məncə, problemi başqa səbəbdə axtarmalıyıq. Həyəcan təbili çalma vaxtı deyilmi?".

Paylaşıma müxtəlif şərhlər yazılıb. Kimisi bunu distant təhsillə, kimisi süni tərkibli qidalarla, kimisi də çirkli hava ilə əlaqələndirib.

*Bəs, problemin əsas səbəbləri nədir?*

**Mövzuya aydınlıq gətirən tanınmış oftalmoloq Paşa Qəlbinur "Şərq"ə söyləyib ki, statistikaya görə, son iki-üç ayda uşaqlarda 30-35 faiz görmə zəifliyi yaranıb:**

"Bu da birbaşa koronavirusla bağlıdır. İki ilə yaxındır ki, dünyada, eyni zamanda bizdə pandemiya şəraiti hökm sürür. Azyaşlı uşaqlar bu dönəmdə daha çox evdə kompüter arxasında vaxt keçirirlər. Belə olduqda onların gözləri akkomadasiya etmədi, yəni uzağı görməyə uyğunlaşmadı.

Əvvəllər gözün real müşahidəsi daha çox olduğundan uşaqlarda görmə daha effektiv idi".

**Günəş Mərd**

**Elan**

"Bakı Körpü Tunel" ASC-nin 17 dekabr 2021-ci il tarixdə, saat 10:00-da səhmdarların ümumi yığıncağı keçiriləcək.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**
**KURSLAR**
-**MÜHASİBAT** (2 AY)
-**Mobil telefonların təmiri** (3 ay)
-**KOMPYUTER** (1-3 AY)
-**KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)
-**KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)
-**Dizayn** (3-6ay)
-**Masaj** (3 ay)
-**Biçmə - Tikiş** (3 ay)
-**Məktəb Psixologiyası** (12 ay)
**Tel: (012) 489-08-84**
**Mob: (070) 241-28-67**
**www.az-baku.com**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Aynurə Pənahqızı, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2585



## Bığlarına 500 lirə xərcləyir

“Nə qədər ki, sağam kəsdirməyəcəm”



**Türkiyənin Bayburt bölgəsində yaşayan Bayram Aslanhan ”Bayburtlu Pala” ləqəbiylə tanınır.**

Bu ləqəbi ona 18 ildir qırxdırmadığı bığlarına görə verilib. ”Şərq” ”milliyet.com”a istinadən bildirir ki, hazırda Bayram Paşanın bığlarının uzunluğu 1 metr 15 santimetrdir. Bayram Aslanhan bığlarına qulluq üçün hər ay 500 lirə pul sərf edir. B.Aslanhan 18 il əvvəl atası vəfat etdikdə bir müddət üzünü qırxmayıb, bığları da uzanıb. Sonra uzun bığlar xoşuna gəlib və sadə bir maraqdan bığlarını uzatmağa başlayıb. Bircə dəfə bığını kəsmək istəyib, o zaman da ətrafdakıların etirazını eşidib. O gündən bu günə bığlarına qayçı dəymir. Amma bığlarına qulluq edir. B.Aslanhan deyir ki, nə qədər ki sağdır, bığlarını kəsdirməyəcək: ”Bir dəfə bığımı kəsdim, ətrafdakılar, ”Bayram abi, niyə bığlarını kəsdin, biz səni belə tanımışıq, belə sevirik”, dedilər. Mən də qərara gəldim ki, nə qədər sağam, ömrümün sonunadək bığlarımı kəsməyəcəyəm. Mən öləndən sonra nə edirlər, etsinlər ”. Bayram Aslanhanın bığlarına qulluq göstərən bərbər Şərəf Şık da bu işdən zövq aldığını söyləyib.

**Məlahət**

## Burnunda 20 il muncuqla gəzdi, xəbəri olmadı

Hanna xüsusi ucluqla muncuğu çıxarda bilib və bunu Tik Tokda paylaşıb



**Tiktokda məşhurlaşan Xanna burnunda illərdir davam edən iltihabdan əziyyət çəkib.**

Medicina.az xəbər verir ki, qız uşaq olanda burnuna muncuq saldığını xatırlayır, amma onun düşdüyünü güman edirdi.

”Bilirsiz, bəzən bu xatirələr lap uşaqlıqdan yadda qalır, mənim indiyəkimi yadımdadır, 3 yaşım olanda muncuğu burnuma saldım və o dərinlikdə itdi. Anama bu barədə demədim, bunu unutdum. Amma böyüyəndən sonra burnumda infeksiya, iltihabdan əziyyət çəkirdim.

Ötən ay isə burnumun bir tərəfi tamamilə tutuldu, güclü ağrı başladı. Mən tibbi kamera tapıb, burnumun dərinliyinə kimi baxdım və orda qaranlığın qurtacağında həmin o mavi muncuğu gördüm”.

Hanna xüsusi ucluqla muncuğu çıxarda bilib və bunu Tik Tokda paylaşıb.

## Sudan mərmi kimi çıxdı

**İtini timsahın ağzından güclə qurtardı!**



**İtiylə gölməçənin sahilində gəzən 74 yaşlı adam həyatının şokunu yaşayıb.**

**Gölməçədən sahilə atılan timsah iti tutaraq suya girib. Yaşlı adam da timsahın arxasından suya atılıb və itini qurtarmağa çalışıb.**

**”Şərq” xarici media istinadən xəbər verir ki, hadisə kameralarda əks olunub.**

**Nəhayət, uzun mübarizədən sonra bala itini timsahın ağzından qurtaran adam yaşadığı dəhşət dolu anları bu sözlərlə izah edib:**

**”Gölməçənin yanı ilə gedirdik və sanki sudan bir mərmi kimi çıxdı. Bir timsahın bu qədər sürətli ola biləcəyini heç düşünməmişdim. Çənəsini açıb iti qurtarana qədər çox çətinlik çəkdim”.**

**Turan**

## Məşhur müğənni biznesmenə ərə getdi



**Məşhur rusiyalı müğənni, ”Blestəhie” qrupunun eks-solisti Olqa Orlova gizlincə ərə gedib.**

**Axşam.az xəbər verir ki, bu barədə ifaçı instaqram hesabında məlumat yayıb. O, Valeri adlı biznesmenlə ailə həyatı qurduğunu açıqlayıb.**

**”Uzun müddət fikirləşdim və sizinlə də paylaşmaq qərarına gəldim. Bu barədə məndən xəbər tutmağınızı istədim. Tanızlığımızın ikinci il dönümündə nikah kağızına (sentyabrın 27-də) imza atdıq.**

**Həmişə inanırdım ki, yer üzündə haradasa, onu axtardığım kimi məni də axtaran kimsə var. Və onunla görüşdüm. Çox xoşbəxtəm. Və bunu sizinlə bölüşürəm.**

**Təkrarlamaqdan yorulmayacağam ki, qırxdan sonra həyat təzə başlayır!” deyə, Olqa yazıb.**







# Yürüşə çıxmışdılar...

## Susuzluqdan bütün ailə həlak olub

**Məlahət Rzayeva**

**ABŞ-da təbiət qoynuna yürüşə çıxan cütlük - 45 yaşlı mühəndis Jonathan Gerrish və 31 yaşlı həyat yoldaşı Ellen Chung 1 yaşlı körpə qızları Mijunu da özləri ilə götürüb. Bəslədikləri köpək də yanlarında olub.**

Lakin bütün ailə üzvləri faciəvi şəkildə vəfat edib. Cütlüyün yürüşə çıxdığı Sierra Milli Parkının daxil olduğu ərazi üzrə polis şefi Jeremy Briese, mediaya açıqlamasında ”bu, 20 illik iş təcrübəmdə rastlaşdığım ilk hadisədir”, söyləyib. ”Şərq” ”Milliyet.com”a istinadən xəbər verir ki, cütlük bu il avqustun 17-də Milli Park ərazisində ölü halda tapılıb. Ərazi polisi və istintaq orqanları ər-arvad və körpənin ölüm səbəbini araşdırmaq üçün geniş təhqiqatlara başlayıb. Təhqiqatın sonucu olaraq 77 səhifəlik izahat tərtib edilib. İzahatda yazılanlar qandondurucudur. Məlum olub ki, 1 yaşlı körpə ölmədən öncə ata-anası onun həyatda qalması üçün çabalayıb. Cütlük son dəqiqələrədək körpəyə tibbi yardım göstərilməsi üçün çağırışlar edib, lakin onların səsini duyan olmayıb. Hadisəni araşdıran həyatda qalmaq üzrə bir təlimçi dedektivlərə göndərdiyi e-məktubda ”valideynlərin ölümü stress sonrası baş verib. Onlar panikaya düşüblər, körpəyə yardım etməyə çalışarkən yaşadıqları stress və həyəcan səbəbindən öz ölümlərinə yol açdıqlarını düşünürəm”, yazılıb. Təlimçi dedektivlərə ”təəssüf ki, cütlük hazırlıqsız yaxalanıb və bunu fərq etdiklərində çarəsizcə həm körpənin, həm də bir-birinin həyatını xilas etməyə çalışıblar”, deyib. Bəs körpənin ölümünə nə səbəb olub? Təhqiqatçılar hər detalı incələyib. Hətta yaxınlıqdakı Merced çayının suyundan zəhərlənmə ehtimalını da araşdırıb. Lakin ölümün daha çox ehtimal edilən səbəbi hər kəsi heyrətləndirib. Ailə susuzluqdan əziyyət çəkib. Cütlüyün bu yürüş üçün yetərli miqdarda su ehtiyatı olmayıb. Əvvəlcə körpə gücdən düşüb. Bu da ata-ananı stresə salıb. Birinin gücü tükəndiyində körpə və köpəklə yardım gözləməyə başlayıb, digəri isə irəli gedərək kömək axtarmağa çalışıb. Ölüm səbəbi hədsiz isti hava şəraiti ilə əlaqədar orqanizmin su ehtiyatının tükənməsidir. Yetərli su olmadığından orqanizmdə hipertermiya və de-hidrasiyon prosesi başlayıb. Ərazinin polis şefi də ”bu, 20 illik təcrübəmdə susuzluqdan ölüm faktının baş verdiyi ilk olaydır”, deyib.








## Messinin 30 milyon avroluq oteli sökülür

77 otaqlı binanın sökülməsinə onun şəhər standartlarına uyğun olmaması səbəb göstərilib

**İspaniyanın Barselona şəhərinin rəhbərliyi Fransanın PSJ klubunun futbolçusu Lionel Messinin otelinin sökülməsinə dair qərar qəbul edib.**

“Report” xəbər verir ki, 77 otaqlı binanın sökülməsinə onun şəhər standartlarına uyğun olmaması səbəb göstərilib. Tikili ”Barselona” klubuna məxsus ”Kamp Nou” stadionu yaxınlığındadır.

Argentinalı hücumçunun İbitsa və Mayorkada da otelləri var. Onlar ”Majestic Hotel Group” şəbəkəsinə daxildir. 34 yaşlı oyunçu Barselonadakı iqamətgahı 2017-ci ildə 30 milyon avroya alıb. ”Barselona”nın keçmiş forvardı həmin binanı aldığı vaxt bilməyib ki, tikinti normalarına əməl edilmədən inşa olunduğu üçün şəhər rəhbərliyi onu sökmək istəyir.

*Qeyd edək ki, Lionel Messi noyabrın 29-da karyerasında 7-ci dəfə ”France Football” nəşrinin ”Qızıl top” mükafatına layiq görülüb.*

## Hollivud ulduzu Nərminə təşəkkür edib

Aktyor sosial şəbəkə hesabında paylaşım edib



**Hollivud ulduzu Hyu Cekson ”buster” doza vaksin vurdurub.**

Axşam.az xəbər verir ki, aktyor bunla bağlı sosial şəbəkə hesabında paylaşım edib.

Onun vaksin vurdurmasından çox, ”Buster” vaksin vurdurdum. Təşəkkürlər, Nərmin!” (”Boosted. Thank you Narmin!”) şərhi müzakirələrə səbəb olub.

Güman edilib ki, Nərmin vaksini vuran tibb bacısıdır. İzləyicilər isə Nərminin milliyyətini müzakirə edib.

*Qeyd edək ki, Nərmin Beşai adlı xanım Nyu-Yorkda yaşayır.*

## Üçüncü övladı dünyaya gəldi

Məşhur aktrisa qızının fotosunu heç paylaşmamışdı



**Türkiyənin məşhur cütlüyü - Bərgüzar Korel və Halit Ergencin 3-cü övladları dünyaya gəlib. Körpənin dünyaya gəlməsindən artıq bir müddət keçsə də, Bərgüzar Korel qızının fotosunu heç paylaşmamışdı.**

”Şərq” xəbər verir ki, bu günlərdə aktrisa, görünür, yorğunluğuna artıq qalib gəldiyindən pozitiv enerji ilə körpə qızı Leyla ilə birgə fotosunu instagram hesabında paylaşıb. Bərgüzar Korelin yorğunluğu çətin keçirdiyi hamiləliyi və ağır keçən doğuşla bağlı idi.

Leyla xoşbəxt evlilikləri 12 ildir davam edən Bərgüzar Korellə Halit Ergencin üçüncü övladıdır. Aktrisanın paylaşdığı foto izləyicilər tərəfindən çox bəyənilib. Aktrisa qızını çox çətinliklə dünyaya gətirdiyini deyib: ”Evdən çıxarkən ”səhər saat 10-a qədər ancaq dünyaya gələr”, deyə düşünürdüm. Həkimim ”körpənin doğumunun gecikməsinin bir səbəbi var. Göbək bağı boynuna dolanmış ola bilər”, demişdi. Qızımın gəlişi gecikirdi. Xəstəxanada 11 saat sancı içində qalmışam. Nəhayət, düşündüyüm kimi səhər saat 10-a yaxın qızım dünyaya gəldi, göbək bağı boğazına dolandığından qucağıma da ala bilmədim. Körpənin başı da ”tərs” idi. Yəni anlayacağınız, yerə yox, göyə baxaraq gəldi Leylamız”.

*Bərgüzar Korel ona yardım göstərən həkimlərə də minnətdarlıq edib.*

**Məlahət**

## “Omicron" ölümə səbəb olmayıb

ÜST yoluxmadan sonra gedişatı açıqlayıb



**”Omicron” ştamına yoluxan pasiyentlərdə xəstəlik daha yüngül gedişatlı olur.**

Bunu ÜST eksperti Mariya Kerkxove bildirib.

İlk əvvəl ÜST məlumat vermişdi ki, yeni ştam hələ ki, ölümə səbəb olmayıb.

”İlk məlumatlar göstərir ki, ”Omicron”a yoluxanlar xəstəliyi ağır keçirmir, amma yenə də yekun söz demək olmaz”.

Ola bilər ki, bir-iki həftədən sonra biz yoluxanlarda müxtəlif kateroqiyalar üzrə xəstəliyin ağırlaşmasını görə bilərik.